**Türkiyə KİV-ləri Prezident İlham Əliyevin Münxendə Paşinyanı çətin vəziyyətə salmasından yazır**


SABAH ≡ SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜNYA

Aliyev Paşinyan'ı böyle köşeye sıkıştırdı

TARİHTE BİR İLK!

CANLI YAYINDA TARTIŞTILAR

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ile Ermenistan Başbakanı Nikol Paşinyan, 56. Münih Güvenlik Konferansı kapsamında düzenlenen bir panelde Dağlık Karabağ konusunu tartıştı.

Bu panelle, tarihte ilk kez bir Azerbaycan ve Ermenis… tartışma gerçekleştirdi.

ALİYEV: "1 MİLYONDAN FAZLA AZERBAYCANLI

Bax 3

**"Prezident İlham Əliyevin möhtəşəm diplomatik qələbəsi"**



Bax 5

**"Seçkilərlə bağlı bütün müraciətlərə ciddi şəkildə baxılacaq"**



Bax 5



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 033 (5998) 19 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir"

Bax 2



*Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədrini qəbul edib*

## Vahe Hovhannisyan: "Münxendən sonra Paşinyanın komandası yerin altına girdi"

"Münxendən sonra Paşinyanın komandası yerin altına girdi. Möhtəşəm parlamentdən əsər əlamət qalmadı."37 konstitusiyaya ibadət edənlərin" heç biri məsələ ilə bağlı fikir söyləmədilər". SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bu fikirləri sabiq erməni deputat "Altenativ layihələr" qrupunun üzvü...



Bax 6

## Yeni dövriyyəyə buraxılacaq "pensiya kartı" sahibinə nə qazandıracaq?

*"Sosial sahədə aparılan islahatları müxtəlif istiqamətlərə bölmək mümkündür. Bura infrastruktur, məzmun, kadr, sosial ödənişlərin təkmilləşdirilməsi ilə bağlı islahatlar daxildir". SİA-nın xəbərinə görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktor müşaviri Yavər Məmmədov deyib. O bildirib ki, bu gün bütün dünyada sosial ödənişlərin insanlara çatdırılması üçün ən mütrərəqqi üsullardan biri plastik...*



Bax 10

## Ali məktəblərə qəbul imtahanında dəyişiklik edilib

Bax 12



Nazirlər Kabineti "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edib. AZƏRTAC xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar...

## Moskvada istilik rekord həddə çatdı

Rusiyanın paytaxtı Moskva son 130 ilin ən isti qışını yaşıyır. SİA xəbər verir ki, ölkədə qış yuxusuna gedən heyvanlar qış yuxusundan erkən oyanıb. Paytaxt Moskvada havanın istiliyi rekord həddə çatıb. Yeni ildə qar görməyən paytaxtda qış atmosferi yaratmaq istəyən məmurlar tətil günlərində süni qar...



Bax 16

## Xocalı qətliamına aparan yol: gerçək tarixin xronoloji təhlili




SSRİ dağılmışdı. Bütün müttəfiq respublikalar beynəlxalq birliyin subyektinə çevrilmişdi. Moskvanın erməni lobbisinin də hərtərəfli dəstəyi ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirmək cəhdi...

Bax 8

**"Azərbaycan Avropaya 20 milyard kubmetr qaz ixrac edəcək"**



Bax 10

**Brenda Şaffer: "Nə üçün oğlunuz Dağlıq Qarabağda hərbi xidmətdədir?**



Bax 6

**Azərbaycan qış turizmi üçün də gözəl istirahət mərkəzidir**



Bax 12

# "Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir"

## *Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədrini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edib. AZƏRTAC xəbər verir ki, son illər şəhər nəqliyyatı ilə bağlı görülmüş işlərdən danışan Prezident İlham Əliyev qeyd edib ki, bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir və bu istiqamətdə kompleks tədbirlər görülür:**

- Bakı Nəqliyyat Agentliyi keçən ili yaxşı nəticələrlə başa vurub, görülən işlərin bir hissəsi ilə mən şəxsən tanış olmuşam. Hesab edirəm ki, Agentlik üçün keçən il uğurlu olubdur. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, hələ görüləsi işlər çoxdur.

Son beş il ərzində şəhərimizə yüzlərlə yeni avtobus gətirilib. Bu avtobusların hamısı dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu, bizim şüurlu seçimimizdir. Çünki Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir. Onu da bildirməliyəm ki, beş il bundan əvvəl Bakıya gətirilmiş ilk xarici istehsal olan avtobuslar, hətta o avtobusların istehsal olunduğu ölkələrdə hələ xətlərə çıxmamışdı. Yəni, ən müasir avtobuslar gətirilir. Əlbəttə ki, bu, şəhər nəqliyyatının böyük dərəcədə yaxşılaşdırılması istiqamətində çox önəmli addımdır. Mənim göstərişimlə hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılır və hər il orta hesabla 300 avtobus Bakı Nəqliyyat Agentliyinin xətti ilə şəhərimizə gətirilir. Beləliklə, biz avtobus parkını tədricən müasirləşdiririk. Eyni zamanda, mənim özəl şirkətlərə də tövsiyəm ondan ibarət idi ki, onlar da öz avtobus parklarına yenidən baxsınlar. Görürəm ki, bəzi şirkətlər bu istiqamətdə önəmli addımlar atırlar.

Avtobusların ölkəmizə gətirilməsi, əlbəttə ki, işlərin bir hissəsidir. Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir və bu istiqamətdə kompleks tədbirlər görülür. Yol infrastrukturuna görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir. Bu da Davos Forumunun hesabatında əksini tapıbdır.

> *"Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir"*

Şəhər nəqliyyatı ilə bağlı digər tədbirlər də görülür və görüləcəkdir. Eşitmək istərdim ki, keçən il görülmüş əsas işlər nədən ibarət idi? Bu il neçə yeni avtobus gətiriləcək və şəhər nəqliyyatında hansı yeniliklər olacaq?

**Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli:**

-Çox sağ olun, cənab Prezident. Keçən il Bakı şəhərində fəaliyyət göstərən 2200 avtobusla 801 milyon sərnişin daşınıb. Ümumi daşıyıcıların sayı 65-dən 37-yə endirilib. Yəni, iki avtobusu olan şəxslər var idi ki, onlar da fəaliyyət göstərmək istəyirdilər. Aydın məsələdir ki, onlar insanların rahatlığı üçün deyil, öz maraqları naminə fəaliyyət göstərirdilər. Biz onların sayını müəyyən tələblər əsasında 65-dən 37-yə endirdik. Ümumilikdə, beş il ərzində 855 avtobus yenilənib. Bunlardan 600-ü Sizin tapşırığınızla xarici ölkələrdən gətirilib. Daşıyıcılar tərəfindən də Bakı Nəqliyyat Agentliyinin tələbləri əsasında 295 müasir avtobus gətirilib. Ümumilikdə bu günədək avtobus parkı 40 faizə yaxın yenilənib. Sizin tapşırığınıza əsasən hər il 300 avtobus gətirilməklə yaxın üç ildə parkın yenilənməsini 100 faizə çatdırmağı planlaşdırırıq.

Eyni zamanda, məlumat üçün bildirim ki, bizim gətirdiyimiz yeni avtobuslar ətraf mühitə daha az zərər verən sıxılmış təbii qazla (STQ) işləyir. Dünyanın bir sıra böyük şəhərlərində STQ ilə az sayda avtobus işləyir. Məsələn, Vyanada STQ ilə işləyən avtobuslar, ümumiyyətlə, yoxdur. Berlində bu istiqamətdə pilot layihənin tətbiqinə başlanılıb. Moskvada 6475 avtobusdan 319-u, İstanbulda isə 3070 avtobusdan 239-u STQ ilə işləyir. Amma bizdə 2200 avtobusdan 600-ü artıq STQ ilə fəaliyyət göstərir. Daşıyıcılara da göstəriş verilib ki, STQ ilə işləyən avtobuslar gətirsinlər. Çünki benzinlə və dizel yanacağı ilə işləyən avtobuslar şəhərdə orta sürətlə hərəkət etdiyi üçün ətraf mühitə daha çox ziyan vurur.

Bu il üçün daha bir yenilik müxtəlif yerlərdə avtobuslar üçün habların yaradılması olacaq. Siz keçən ilin sentyabr ayında "Koroğlu" habının açılışında bu barədə tapşırıq vermisiniz.

Avtobus sürücüləri ilə bağlı əsas problemlərdən biri onların peşə hazırlığına və iş rejiminə daşıyıcılar tərəfindən ciddi nəzarət olunmamasıdır. Biz bu problemin üzərində işləyirik. Bu məqsədlə Sürücü Təlim Mərkəzi yaradılıb və Siz onun açılışında iştirak etmisiniz. İndiyədək 2800-dən çox avtobus sürücüsü Mərkəzdə təlim keçib.

Yol infrastrukturu üzrə də bir sıra işlər görülüb. Avtobusların, təcili tibbi yardım və yanğınsöndürən maşınların tıxaclarda qalmaması, eyni zamanda, fasiləsiz hərəkətini təmin etmək üçün yollarda xüsusi zolaqlar ayrılıb. Bundan əlavə, 2018-ci ildə taksi xidmətinə dair yeni tələblər müəyyənləşdirilib. Bu tələblərdə şəhərdə və hava limanında hansı növ taksilərin fəaliyyət göstərməsi, tariflər əksini tapıb. Cənab Prezident, biz bu ilin birinci yarısında bütün marşrut xətlərində işləyən avtobuslarda ödənişin kart sistemi ilə aparılmasını təmin edəcəyik. Bu isə Sizin tapşırdığınız kimi, kölgə iqtisadiyyatının, eyni zamanda, qeyri-formal iş rejiminin aradan qaldırılmasına, sürücülərin 8 saatdan artıq işləməsinin qarşısının alınmasına, ictimai nəqliyyatdakı dövriyyənin şəffaflaşmasına imkan yaradacaqdır.

Ümumilikdə bizim əsas məqsədimiz sərnişinlərin daha az vaxt sərf edərək mənzilbaşına rahat, təhlükəsiz çatmasıdır. Bunun üçün nəinki Bakı Nəqliyyat Agentliyi, eyni zamanda, ictimaiyyət də fəal olmalıdır. Çünki şəxsi nəqliyyat vasitəsilə bir nəfər gedir, avtobusda isə 70-80 nəfərə qədər sərnişin olur. O bir nəfər avtomobilini yolda qeyri-qanuni park etdiyinə görə, avtobusun hərəkəti üçün çətinliklər yaradır. Son zamanlar parkinqlə bağlı cərimələrə görə insanların müəyyən narazılıqları olur. Amma Bakı paytaxt şəhərimizdir, bütün ölkələrin paytaxt şəhərlərində olduğu kimi, bizdə də insanlar avtomobillərini istədikləri yerlərdə park edə bilməzlər. Çünki əsas ictimai nəqliyyatdır, biz gün ərzində 2 milyon 200 sərnişin daşıyırıq. Sakinlər, əsasən, ictimai nəqliyyatdan istifadə edirlər. Ona görə, Sizin tapşırığınıza əsasən, biz ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin rahatlığını təmin etməyə çalışırıq.

**Prezident İlham Əliyev:** Əlbəttə, şəhər nəqliyyatının təkmilləşdirilməsi hər bir böyük şəhər üçün önəmli məsələdir. Şadam ki, son illər ərzində Bakı şəhərində görülmüş işlər kompleks xarakterlidir və bu işlər nəqliyyatla bağlı bütün sahələri əhatə edir. Çox yaxşı haldır ki, hazırda bütün nəqliyyat növləri arasında koordinasiya işləri də aparılır. Hesab edirəm ki, taksi, metro və avtobus xidmətləri növbəti mərhələdə bir-biri ilə daha da sıx əlaqədə olmalıdır. Əsas məsələ tıxacların azaldılmasıdır. Əlbəttə ki, bunun üçün təkcə yeni yolların çəkilişi, yeni qovşaqların tikintisi ilə işimizi məhdudlaşdıra bilmərik. Amma o da həqiqətdir ki, əgər son 10-12 il ərzində Bakıda böyük yol infrastrukturu layihələri icra edilməsəydi, bu gün şəhər nəqliyyatı tıxacdan tərpənə bilməzdi. Bu, həqiqətdir. Sadəcə, 10 il bundan əvvəl mövcud olan mənzərəyə qayıtmaq lazımdır ki, bunu hər kəs görsün və bilsin. Bizim əsas nəqliyyat damarlarımız deməkolar ki, tamamilə iflic vəziyyətdə idi. Şəhəri hava limanı ilə birləşdirən əsas yol, baxmayaraq ki, dördzolaqlı sayılırdı, əslində, ikizolaqlı idi və bu yol boyunca bir neçə dairə mövcud idi. Ancaq bu gün bir dənə də dairə yoxdur, yeni hava limanından şəhərə çox rahat gəlmək üçün bütün imkanlar var. Təkcə bu deyil, hava limanına digər avtomobil yolunun çəkilişi də böyük əhəmiyyət daşıyır. Zığ istiqamətindən hava limanına, ümumiyyətlə, yol yox idi.

Ardı Səh. 3

# "Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir"

## *Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədrini qəbul edib*

**Əvvəli Səh. 2**

O vaxt biz təşəbbüs göstərərək onu icra etdik və bu, bir çox məsələləri həll etdi. Eyni zamanda, deyə bilərəm ki, son illərdə Bakı şəhərində görülmüş işlərin, tikilmiş körpülərin, yol qovşaqlarının bəlkə də misli-bərabəri yoxdur.

Ancaq bununla yanaşı, nəqliyyat vasitələrinin sayı artır. Bu da əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasından xəbər verir. Statistika var, hər il ölkəmizə gətirilən və artıq hazırda ölkəmizdə istehsal olunan nəqliyyat vasitələrinin sayı artmaqdadır. Əhalimiz artır, Bakı şəhərinin əhalisi artır. Ona görə, şəhər nəqliyyatımız bu artıma uyğun şəkildə inkişaf etməlidir və bu artımla uzlaşmalıdır. Odur ki, bundan sonra metro tikintisi, yeni qovşaqların inşası, Bakı dairəvi dəmir yolunun çəkilişinin başa çatdırılması, avtobus nəqliyyatının səmərəli fəaliyyəti - bütün bu nəqliyyat seqmentləri vahid bir mexanizm kimi işləməlidir. Əsas məsələ insanların yola sərf edəcəyi vaxtın azaldılmasıdır.

Bununla bərabər, bəlkə də bundan daha vacib məsələ təhlükəsizlikdir, sürücülərin hazırlanmasıdır, onların tibbi müayinəsi və iş qrafikidir. Mən bu yaxınlarda bildirdim ki, heç kim gündə 8 saatdan artıq işləməməlidir. Əgər kimsə işçiləri qanunsuz işlədirsə, istismar edirsə, cəzasını alacaq. Əlbəttə, əminəm ki, Bakı Nəqliyyat Agentliyində çalışan sürücülər bu meyarlara riayət edirlər. İnsanların rahatlığı da vacib məsələdir. İnsanlar müasir avtobuslarda özlərini çox rahat hiss edirlər. Prinsip etibarilə elə bir avtobus xidməti olmalıdır ki, hətta şəxsi nəqliyyat vasitəsi olan insanlar da şəhər nəqliyyatı ilə hərəkət etməyə üstünlük versinlər. Hesab edirəm ki, biz bu hədəfə yaxınlaşırıq. Əlbəttə, növbəti illərdə avtobus parkının təzələnməsi istiqamətində əlavə tədbirlər görüləcək və eyni zamanda, şadam ki, hazırda ölkəmizə gətirilən yeni avtobuslar ekoloji cəhətdən çox təmizdir. Çünki sirr deyil ki, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir. Sənaye müəssisələri, ticarət obyektləri deyil, - bunun statistikası var, - nəqliyyat vasitələridir. Ona görə həm iki ildən sonra Azərbaycanda istehsal olunacaq "Avro-5" markalı benzinin bazara daxil olması bu sahədə çox böyük irəliləyişə səbəb olacaq, eyni zamanda, sıxılmış qazla və elektrik enerjisi ilə işləyən avtobusların ölkəmizə gətirilməsi, bunun üçün müvafiq infrastrukturun yaradılması zəruridir. Ona görə bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Bir də maraqlanmaq istəyirəm, - indi şəhərin mərkəzi hissələrində avtobus xidməti kifayət qədər səmərəlidir, - qəsəbələrdə vəziyyət necədir? Qəsəbələrdə avtobus nəqliyyatı ilə bağlı hər hansı bir problem varmı? Varsa, onların həlli üçün nə etmək lazımdır?

**Vüsal Kərimli:** Cənab Prezident, son zamanlar qəsəbələrdə bəzi evlərin yollara yaxın tikilməsi yol infrastrukturunda bir az çətinliklər yaradıb. Biz bu ilin doqquzuncu ayından sonra qəsəbələri onların yol ölçülərinə, dönmə dərəcələrinə görə mərhələli şəkildə avtobuslarla təmin edəcəyik. Çünki 12 metrlik avtobuslar bəzi qəsəbələrin yollarında hərəkət edə bilmir. Sizin tapşırığınıza əsasən bu il alınacaq 415 avtobusdan 115-i artıq sifariş edilib, 300-ü isə tenderə çıxarılacaq. Orada biz 8 və 9 metrlik avtobuslar da nəzərdə tutmuşuq ki, qəsəbələrətrafı və qəsəbələrdaxili hərəkət üçün daha təhlükəsiz, onların yoluna uyğun olsun. Eyni zamanda, mart ayında daşıyıcılar tərəfindən də 50-yə yaxın avtobusun gətiriləcəyi gözlənilir. Bu avtobusların qəsəbələr istiqamətində xətlərə buraxılması nəzərdə tutulur. Qəsəbələrin yol infrastrukturuna dair layihələri biz Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə hazırlayırıq. Bu istiqamətdə də işlər yekunlaşacaq.

Biz qəsəbələrdə əsasən kiçik hablar yaratmaq istəyirik. Bu kiçik habları Siz qeyd etdiyiniz kimi, dairəvi dəmir yolunun ətrafında yaratmaq istəyirik ki, bir-biri ilə əlaqəli olsun. Vətəndaş haba gələndən sonra şəhərə istəsə dəmir yolu ilə, istəsə də avtobusla gedə biləcək.

**Prezident İlham Əliyev:** Elədir. Bir də ki, siz parkinq ilə bağlı danışdınız. Biz burada da hər şeyə ədalətli yanaşmalıyıq. Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək. Ona görə, bəzi hallarda sürücülər bu qaydaları kobudcasına pozurlar. Parkinq olan yerdə maşınları münasib olmayan yerlərdə saxlayıb, həm piyadalara maneə törədirlər, həm də nəqliyyata problem yaradırlar. Ancaq kifayət qədər böyük imkanlar, yəni, parkinq yerləri olmalıdır ki, biz sürücülərə bu tələbləri irəli sürək. Burada da heç bir qanun pozuntusu olmamalıdır. Qanun qarşısında hamı bərabərdir. Hamı bilməlidir ki, şəhər nəqliyyatı həm insanların rahatlığıdır, həm bizim sağlamlığımızdır, həm də havanın təmiz olmasıdır. Yenə də deyirəm, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir, xüsusilə, tıxac olan yerdə. Tıxacın olmaması isə sizin əsas vəzifənizdir. Siz bundan sonra da aidiyyəti dövlət qurumları ilə bu istiqamətdə fəal olmalısınız. Ona görə, parkinqlə bağlı soruşmaq istəyirəm. Vəziyyət necədir və bu il hansı addımlar gözlənilir?

**Vüsal Kərimli:** Bu il biz parkinqlə əlaqədar bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq məsləhət xidmətlərini cəlb etmişik ki, Bakı şəhərində parkinq məsələsi nəinki infrastruktur cəhətdən, eyni zamanda, iqtisadi baxımdan analiz olunsun. Çünki şəhər zonalara bölünməlidir. Bunun gecə vaxtları var. Şəhərdə tıxac olan vaxtlarda açıq yolları analiz edib harada neçə yeraltı parkinqmi, küçə parkinqimi, yoxsa, xüsusilə Molların və insanların yaşadığı əsas yerlərdə modul parkinqlər tikilməlidir və onların tarifləri olmalıdır. Şəhər mərkəzinin tarifi fərqli qiymətdə olmalıdır. "B" zonası fərqli qiymətdə olmalıdır. Bununla əlaqədar biz ilin ilk yarısının yekununda görülmüş işlərin nəticələrinə dair digər müvafiq qurumlarla birgə hesabat hazırlayıb Sizə təqdim edəcəyik.

**Prezident İlham Əliyev:** Yaxşı, bu il görüləsi işlər çoxdur. Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik. Çünki bir daha demək istəyirəm, bu, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçündür. Onu da bildirməliyəm ki, dövlət xətti ilə böyük məbləğə alınan avtobuslar, əlbəttə, kommersiya baxımından bəlkə də 10 il, 20 ildən sonra özünü doğruldacaq. Biz bunu ona görə edirik ki, insanlar şəhər nəqliyyatından, avtobuslardan təhlükəsizlik şəraitində və rahat şəkildə istifadə etsinlər.

# Türkiyə KİV-ləri Prezident İlham Əliyevin Münxendə Paşinyanı çətin vəziyyətə salmasından yazır

***Türkiyənin aparıcı kütləvi informasiya vasitələri (KİV) tərəfindən Münxen Təhlükəsizlik Konfransı çərçivəsində fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı paneldə keçirilən müzakirələr geniş işıqlandırılıb.***













AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi, "Milliyet" və "Sabah" qəzetləri, "NTV" televiziya kanalı və digər nüfuzlu KİV-lərin rəsmi saytlarında yer alan məlumatlarda dövlətimizin başçısının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı N.Paşinyanı fakt qarşısında qoyan fikir və mülahizələri türkdilli oxuculara çatdırılıb.

Prezident İlham Əliyevin "Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir", -fikri məlumatlarda əksini tapıb. Həmçinin KİV Prezident İlham Əliyevin sadaladığı təcavüzkar Ermənistanın işğalçılıq siyasətini ifşa edən digər faktlardan - Azərbaycan ərazisinin iyirmi faizinin işğalda saxlanılması, bir milyondan çox azərbaycanlının öz yurdundan didərgin düşməsi, Xocalı soyqırımı və s. bəhs edib. Türkiyə KİV-ləri Paşinyanın Prezident İlham Əliyev qarşısında çətin vəziyyətdə qaldığını qeyd edir.

Məlumatlarda, həmçinin Ermənistanın baş nazirinin ziddiyyətli, bir-birini təkzib edən ifadələrinə də yer verilib. Bura baş nazirin işğal olunmuş ərazilərimizdə Ermənistanın yox, Dağlıq Qarabağ ordusunun mövcud olması, lakin onun oğlunun bu bölgədə hərbi xidmət keçməsi barədə fikirləri də daxildir.

# Prezident İlham Əliyev Paşinyanın siyasi və tarixi savadsızlığını sübuta yetirdi

*Artıq Ermənistanda anti- Paşinyan ruhu alovlanmağa başlayıb*

***Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib.***




Prezident İlham Əliyevin tutarlı, tarixi faktlarla Paşinyanı susdurması və Paşinyanın tez-tez nitqində səhv etməsi daha çox heç bir əsası olmayan, real faktlara söykənməyən arqumentlər gətirməyə cəhdi isə gülüş doğurub. Debatın gedişatı zamanı Prezident İlham Əliyev məntiqli, tutarlı arqumentlər səsləndirməklə opponenti üzərində üstünlük qazanması və konfransda səslənən fikirlər sözün həqiqi mənasında bir daha Azərbaycan Prezidentinin uğurlu siyasətinin məntiqi reallıqlarıdır.

### Tarixi, hüquqi, siyasi bilikləri sıfır səviyyəsində olan Paşinyana Azərbaycan dövlətinin növbəti tarixi dərsi

Panel müzakirələr göstərdi ki, Azərbaycan Prezidenti İlham Əliyev, sözün həqiqi mənasında Ermənistanın baş nazirinə tarix, siyasət, hüquq dərsi keçdi və özünün nə qədər mahir diplomat olduğunu ortaya qoydu. Bunun qarşılığında isə Ermənistan baş nazirinin nə qədər hazırlıqsız olduğu, tarixi, hüquqi, siyasi biliklərinin sıfır səviyyəsində olduğunun reallığı üzə çıxdı. Məlum oldu ki, o yalnız inqilab etmək üçün bəyanatlar verməyi bacarır. Erməni KİV-lərini yazdığına görə, erməni ictimaiyyəti bir daha anladı ki, Paşinyan Azərbaycan Prezidentinin diplomatik siyasəti qarşısında nə qədər savadsız və səviyyəsizdir. Azərbaycan Prezidenti bu



görüş zamanı bir daha Paşinyana tarix dərsi keçdi və ilk növbədə faktlarla, arqumentlərələ sübut etdi ki, Qarabağ torpağı tarixi əzəli Azərbaycan torpağıdır.

### "Qoy bütün dünya bilsin ki, hətta bu gün Ermənistanın paytaxtı olan İrəvan da tarixi Azərbaycan torpaqlarıdır"

Azərbaycan Prezidenti İlham Əliyevin "Qoy bütün dünya bilsin ki, hətta bu gün Ermənistanın paytaxtı olan İrəvan da tarixi Azərbaycan torpaqlarıdır" səsləndirdiyi bu fikrinin dünyanın aparıcı KİV-lərində geniş şəkildə yayılması Azərbaycanın informasiya cəbhəsində qazandığı çox böyük uğuru və qələbəsi idi. Bu gün Azərbaycan ictimaiyyəti növbəti dəfə öz Prezidentinə minnətdarlığını bildirir ki, O, həm Valdayda, həm Aşqabadda və indi də Münhendə Ermənistanın baş nazirini çox çıxılmaz vəziyyətə salıb və onu tamamilə təkzibedilməz arqumentləri, faktları ilə tərksilah edir. Azərbaycanın Prezidentinin məntiqə, faktlara, arqumentlərə söykənən prinsipial və qətiyyətli mövqeyi qarşısında Ermənistan baş naziri Paşinyanın silsilə xarakterli səhvlərə yol verməsi isə erməni ictimaiyyəti tərəfindən çox böyük qınaq obyektinə çevirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan baş nazirinin tarixi faktları təhrif etdiyini və işğal olunmuş ərazilərdəki silahlı qüvvələrin 80 faizindən çoxunun Ermənistan əsgərləri olduğunu deyib: "Mən 19-cu əsrin əvvəllərində İrəvan əhalisinin 70 faizinin azərbaycanlılardan ibarət olması barədə danışmayacağam. Amma onların hər zaman danışdıqları öz müqəddəratını təyinetmə barədə. Erməni xalqı öz müqəddəratını təyin etdi. Onların bir erməni dövləti var. Məsləhətim budur ki, ikinci dəfə öz müqəddəratını təyin etmək üçün dünyada başqa yer tapsınlar, Azərbaycanda yox".

### <u>Erməni publisist:</u> "Paşinyan Ermənistanda yalan danışmağı səlis bacarır"

Erməni publisist Vahan İşxanyan Paşinyanın Ermənistanda yalan danışmağı səlis bacardığını, Azərbaycan Prezidenti İlham Əliyev qarşısında isə həqiqəti hıqqanaraq söyləməsini deyilənlərin məntiqi sübutu olduğunu bildirib: "Münaqişənin daha geniş kontekstində Münhen təsvirini almaq istəmirsənsə, referendumu boykot et və ya yox de. Bir də Paşinyan faktlardan xəbərsizdirsə, necə desin? İndi niyə hər zaman yalan danışdığı məlumdur, çünki həqiqəti bilmir. Bir də Paşinyanın nə siyasi, nə iqtisadi sahədə savadı sıfırdırsa, Azərbaycan Prezidenti İlham Əliyev kimi bir dahi diplomatla üz-üzə gəlməsi gülüş doğuracaq. Elə keçirilən debatda da Prezident İlham Əliyev Qarabağ müzakirələrində də konkret faktlarla Paşinyanı DARMADAĞIN ETDİ!"

Bu debat bir daha dünyaya bəyan etdi ki, Dağlıq Qarabağ münaqişəsinin həllində status-kvonu saxlamağa çalışan, məhz erməni tərəfi və onların arxasında duran müəyyən qüvvələrdir. Azərbaycan Prezidenti bu debatdakı çıxışı ilə dünyaya bir daha göstərdi ki, Dağlıq Qarabağ probleminin həllində status-kvonu saxlamaqla ermənilər vaxtı uzatmağa çalışır.

Beləliklə Azərbaycan Prezidenti İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş paneldəki çıxışı Azərbaycanın xarici diplomatiyasının, həm də Prezident İlham Əliyevin apardığı xarici siyasətinin böyük qələbəsidir. Bununla dünya ictimaiyyəti bir daha Ermənistanın acizliyini, yalana əsaslanan tezislərinin darmadağın olduğunu gördü.

***RƏFİQƏ KAMALQIZI***

# "Prezident İlham Əliyevin möhtəşəm diplomatik qələbəsi"



"Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevlə Ermənistanın baş naziri arasında açıq müzakirələr artıq neçə gündür ki, gündəmi zəbt etməkdədir. Mövzunun təkcə Azərbaycanın və təcavüzkar Ermənistanın deyil, həm də dünyanın bir sıra aparıcı mətbuat orqanlarının diqqətində olması ona olan marağın miqyasından xəbər verir. Etiraf etmək lazımdır ki, son bir neçə ay ərzində müxtəlif beynəlxalq meydançalarda iki ölkə rəhbəri arasında baş tutan mükalimələr böyük ictimai rezonansa səbəb olmuşdur. Bu müzakirələr hər şeydən əvvəl geniş beynəlxalq auditoriyanın həm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyətini daha yaxşı anlamasına, həm də, bu da çox vacib məqamdır, münaqişə tərəflərinin öz mövqeyini, deməli, tarixi həqiqəti təqdim etmək potensialını üzə çıxarmasına imkan yaradır. Artıq İlham Əliyevin təqdimatında Azərbaycanın mövqeyinin getdikcə güclənməsinin, arqument bazasının möhkəmlənməsinin, Paşinyanın təqdimatında isə tam əksinə olaraq, təcavüzkar Ermənistanın mövqeyinin zəiflənməsinin davam etməsinin şahidi oluruq. Münxen Təhlükəsizlik Konfransı bu baxımdan istisna təşkil etmədi". SİA-nın verdiyi məlumata görə, bu fikirlər Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavin - İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində paylaşım etdiyi "Prezident İlham Əliyevin möhtəşəm diplomatik qələbəsi" sərlövhəli məqaləsində yer alıb.

Əli Əhmədov fikirlərini davam etdirərək qeyd edib: "Prezident İlham Əliyevlə baş nazir Paşinyan arasında canlı şəkildə izlədiyimiz müzakirələr birmənalı şəkildə Azərbaycanın dövlət başçısının təcavüzkar dövlətin rəhbəri ilə müqayisədə böyük üstünlüyünün nümayişinə çevrildi. Əvvəla, intelektual müstəvidə iki lider arasında ciddi fərqlər aydın şəkildə nəzərə çarpdı. İkincisi, İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və tarixi ilə əlaqədar həqiqətləri daha aydın və arqumentləşmiş şəkildə dinləyicilərə və izləyicilərə çatdırdı. Ən əsası isə dövlət başçımız Azərbaycanın mövqeyini layiqincə müdafiə etməyə, daha sanballı arqumentləri ilə təcavüzkar dövlətin rəhbərini demək olar ki, bütün arqumentlərdən məhrum etməyə, başqa sözlə desək, tərksilah etməyə nail ola bildi".

"Heç şübhəsiz, Münxen Təhlükəsizlik Konfransında açıq müzakirələr Prezident İlham Əliyevin baş nazir Paşinyan üzərində qəti və inandırıcı intellektual, nəzəri-tarixi, mənəvi və psixoloji qələbəsi ilə tarixə düşdü. Daha əhəmiyyətlisi isə odur ki, Prezident İlham Əliyevin timsalında Azərbaycanın Ermənistandan mənəvi-psixoloji üstünlüyü özünün aydın təsdiqini tapdı. Görünür, bu səbəbdəndir ki, işğalçı Ermənistanın siyasətçiləri və ekspertlərindən tutmuş adi insanlarına qədər hamı Paşinyanın ağır məğlubiyyətini etiraf edir və buna görə ona qarşı ən sərt ittihamları irəli sürməyə başlayır" - deyə, Əli Əhmədov qeyd etmişdir.

Əli Əhmədov fikirlərini bu cür tamamlamışdır: "Mən qətiyyətlə, daxili inamla Münxen Təhlükəsizlik Konfransında açıq müzakirələrdə Prezident İlham Əliyevin çıxışını, gətirdiyi arqumentləri, Paşinyanın əlacsız vəziyyətə düşməsini Dağlıq Qarabağ münaqişəsi üzrə Azərbaycanın ədalətli mövqeyinin bütün dünyaya daha ətraflı çatdırılması sahəsində möhtəşəm addım hesab edirəm. Münxen Təhlükəsizlik konfransında açıq müzakirələrdə Prezident İlham Əliyevin Azərbaycanın mövqeyini ləyaqətlə, bacarıqla və qətiyyətlə müdafiə etməsi, heç birimizin şübhə etmədiyimiz həqiqəti bir daha sübuta yetirdi: Ölkəmizin və onun əhalisinin taleyi qüdrətli və etibarlı əllərdədir. Bu fikirlər eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli perspektivlərinə şamil edilə bilər və edilməlidir".

*Ceyhun Rasimoğlu*

# Elmar Məmmədyarov Avropa Parlamentinin komitə sədri və Azərbaycan üzrə daimi məruzəçi ilə görüşüb



Xarici İşlər naziri Elmar Məmmədyarov Avropa Parlamentinin (AP) Xarici Əlaqələr Komitəsinin sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlister və Azərbaycan üzrə daimi məruzəçi, Avropa Xalq Partiyasının Xorvatiyadan olan deputatı xanım Jelena Zovko ilə görüşüb.

Nazirlikdən Trend-ə verilən məlumata görə, görüş zamanı tərəflər Aİ-Azərbaycan arasında mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri, o cümlədən ikitərəfli əlaqələrin hüquqi bazasını təşkil edəcək yeni Saziş üzrə davam etdirilən danışıqlar barəsində fikir mübadiləsi apardılar. Bu xüsusda ticarət sahəsində danışıqların cari vəziyyəti və Aİ-nin ticarət üzrə Komissarı ilə keçirilmiş görüşə toxunuldu. Azərbaycanın Avropa arasında enerji sahəsində strateji tərəfdaşlıq münasibətləri, habelə Cənubi Qaz Dəhlizi layihəsi və onun gələcəkdə yeni layihələrlə genişləndirilməsi perspektivləri və enerji təhlükəsizliyi mövzularında müzakirələr aparıldı. Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların cari vəziyyəti, o cümlədən Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin iştirakı ilə açıq müzakirələr haqqında qarşı tərəfə məlumat verdi. Münaqişənin beynəlxalq ictimaiyyətin, o cümlədən Avropa Parlamentinin müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həllinin və Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasının vacibliyini vurğuladı.

Tərəflər, həmçinin Azərbaycanda baş tutan növbədənkənar parlament seçkilərindən danışdılar. Nazir bu seçkilərin ölkəmizdə həyata keçirilən siyasi və struktur islahatları kontekstində nəzərdən keçirilməli olduğunu bildirdi və seçkilərin xalqın iradəsini ifadə etdirdiyini bildirdi. Seçkilərdən sonra qeydə alınmış hər bir şikayətin ciddi şəkildə araşdırıldığı və hazırda 4 seçki dairəsində nəticələrin ləğv olunduğu qarşı tərəfin diqqətinə çatdırıldı.

# Azərbaycan Prezidentinə göndərilən minnətdarlıq məktubları ölkəmizin demək olar ki, bütün bölgələrini əhatə edir



Ölkə vətəndaşları hər zaman olduğu kimi, 2019-cu ildə də sosial problemlərinin həlli, həyata keçirilən abadlıq-quruculuq işləri, ölkəmizin qazandığı nailiyyətlər və uğurlarla əlaqədar dövlətimizin başçısına çoxsaylı minnətdarlıq məktubları göndəriblər. Onlar öz problemlərinin həlli ilə yanaşı, respublikada aparılan əzəmətli quruculuq işlərindən duyduqları böyük sevinc hissini ifadə etməyi özlərinə borc hesab edirlər. Belə məktublar, demək olar ki, Azərbaycanın bütün bölgələrini əhatə edir. Eyni zamanda, xarici ölkə vətəndaşlarından, habelə xarici ölkələrdə yaşayan soydaşlarımızdan daxil olan minnətdarlıq məktubları da az deyildir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Prezident Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan Prezidentinin dərin islahatları vətəndaş müraciətlərində qaldırılan məsələlərin həllinə böyük inam yaradır" adlı məqaləsində öz əksini tapıb.

Vətəndaşlar dövlətin həyata keçirdiyi siyasəti, dövlət başçısının xalqa olan diqqət və qayğısını təqdir etdikləri kimi, Prezident İlham Əliyev də xalqın ümumi məsələlərə münasibətini, dövlətin öz xalqından güc aldığını vurğulayaraq deyir: "Bütün bunlar əlbəttə ki, gördüyümüz işlərə verilən yüksək qiymətdir. Ən böyük qiymət Azərbaycan xalqı tərəfindən verilən qiymətdir. Bu yaxınlarda aparılan sorğuya əsasən demək olar ki, əhalinin mütləq əksəriyyəti Azərbaycan rəhbərliyini, bizim apardığımız siyasəti birmənalı şəkildə dəstəkləyir. Əlbəttə ki, bu dəstək bizə güc verir, iradəmizi artırır və biz islahatlara daha da böyük həvəslə, daha da böyük imkanlarla meyil göstəririk, bu islahatları aparırıq".

Məqalədə bildirilir ki, yola saldığımız 2019-cu il ölkə tarixində mühüm sosial islahatlar ili kimi yadda qaldığına və bu islahatların təsir dairəsi çox geniş olduğuna görə bununla bağlı il ərzində xeyli minnətdarlıq məktubu daxil olub. Ümumiyyətlə, ölkəmizin sürətli inkişafı və bunun fonunda xalqımızın güzəranının yaxşılaşması vətəndaş məktublarının mütləq əksəriyyətini səciyyələndirən əsas mövzulardandır.

# Qırğızıstan portalında Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlərlə bağlı materiallar yerləşdirilib


Не защищено | goldenbridgenews.com/ru/category/тюркский-мир/азербайджан/

Президент Ильхам Алиев в рамках Мюнхенской конференции по безопасности принял участие в круглом столе на тему «Энергетическая безопасность»

Posted by gbnews-admin - Воскресенье Февраль 16th, 2020

14 февраля Президент Азербайджанской Республики Ильхам Алиев в рамках Мюнхенской конференции по безопасности принял участие в круглом столе на тему «Энергетическая безопасность». Как сообщает специальный


Qırğızıstanın goldenbridgenews.com portalında Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlərlə bağlı materiallar dərc olunub.

Portalda yer alan "Müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iştirak ediblər", "Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada iştirak edib" və "Prezident İlham Əliyev Münxendə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşüb" sərlövhəli materiallar AZƏRTAC-a istinad edilərək verilib.

# MSK daha beş məntəqədə seçkilərin nəticələrini ləğv edib



Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında 79 saylı İmişli Seçki dairəsindən namizədlər - Hüseynli İlqar, Fərzəliyev Muradın və Əkbərli İltizam şikayətinə baxılıb. SİA-nın məlumatına görə, MSK sədri Bəxşeys Əsgərov iclasda bildirib ki, müraciətlərdə çoxlu sayda videogörüntülər, protokollar, aktlar MSK-ya təqdim edilib: Araşdırma zamanı hər iki namizəd MSK-da olub. Gecə saatlarına qədər biz onlarla araşdırmanı aparmışıq. Aparılan araşdırma nəticəsində iki məntəqə üzrə seçki qanunvericiliyinin pozulmasını müşahidə etmişik. 14 saylı və 23 saylı məntəqədə keçirilən səsvermə seçicilərin iradəsini əks etdirmədiyi məlum olub. Seçki məntəqələrində əsas mübahisələndirilən məsələ protokolların namizədlərə verilməməsidir. Fərzəliyev Murad isə 43 seçki məntəqəsindən 37-dən protokolları əldə edə bilib. F. Murad şikayətə əlavə olaraq, 19, 20, 21 saylı məntəqələrdə də seçkinin nəticələrini araşdırmağı xahiş edib. Ekspert Qrupu sosial şəbəkədə yayılan və veb-kameralardakı görüntüləri də araşdırıb. 14, 16, 21, 23, 25 saylı məntəqələrdə səsvermənin nəticələri etibarsız hesab edilib.

*Aysel Məmmədova*



## "Seçkilərlə bağlı bütün müraciətlərə ciddi şəkildə baxılacaq"

Şikayətçi şikayəti göndərəndən sonra əlinə hansısa material keçərsə, bunu MSK-ya təqdim edə bilər. SİA-nın məluatına görə, bunu MSK sədri Məzahir Pənahov dünən keçirilən iclasda deyb. M.Pənahov bildirib ki, MSK bütün şikayətləri ciddi şəkildə araşdırır: "Hətta şikayətçi bizə ünvanladığı şikayətdən sonra da əlinə material keçərsə, bunu bizə təqdim etsin. Bizim hələ vaxtımız var. Bütün şikayətlərə ciddi şəkildə baxılacaq və müvafiq qərar qəbul ediləcək."




# "The USA Tribune": Münxendə söz dueli və onun qalib "revolveri"

***ABŞ-ın "The USA Tribune" qəzetində siyasi icmalçı Robert Qorovitsin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin müzakirələrinə həsr olunmuş "Münxendə söz dueli və onun qalib "revolveri" sərlövhəli məqaləsi dərc olunub.***

Müəllif yazır ki, tarix dərsliklərindən və Avropa ədəbiyyatından qarşı tərəflərin öz şərəf və ləyaqətini qorumaq məqsədilə keçirilən silahlı qarşıdurma - duellərin zəruriliyi hamıya məlumdur. Bir ekspozisiya forması kimi duel bir çox mədəniyyətlərdə, o cümlədən Amerika qitəsinin Vəhşi Qərbində də öz yerini tapıb. Müasir dünyada duel beynəlxalq münasibətlərdə təzahür edir, hərçənd özünü silahlı deyil, söz mübadiləsi formasında göstərir. Bu isə daha güclü bir amildir.

Söz dueli üçün müasir dünyada ən yaxşı meydan BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyası, Davos forumu, Münxen konfransı və ölkələrin liderlərinin öz mövqelərini və üstünlüklərini nümayiş etdirdikləri digər platformalardır. Münxen Təhlükəsizlik Konfransı son 60 ildə mütəmadi keçirilən beynəlxalq təhlükəsizlik siyasəti üzrə tədbirdir.

Bu il fevralın 14-16-da keçirilən Təhlükəsizlik Konfransı keçmiş Sovet İttifaqından olan icmalçılar üçün maraqlı oldu. Belə ki, təhlükəsizlik məsələləri, ələlxüsus postsovet məkanında uzun sürən münaqişələr diqqət mərkəzində idi. Konfransın kuluarlarında baş verən mühüm hadisələrdən biri də "Dağlıq Qarabağ münaqişəsinin həllində inkişaf" diskussiyası oldu. Ermənistan və Azərbaycanın liderləri Cənubi Qafqazda 30 ildir davam edən münaqişəni müzakirə etmək üçün səhnəyə çıxdılar.

Müəllif qeyd edir ki, iki ölkənin liderləri auditoriyaya Qarabağın tarixinə dair öz versiyalarını təqdim etdilər. O vurğulayır: "Erməni lider nala-mıxa döyürdü, artıq tükənmiş arqumentləri təkrar edirdi, ermənilərin guya Cənubi Qafqazın yerli sakinləri və Qarabağın tarixən Ermənistanın bir hissəsi olduğunu söyləyirdi".

Paşinyanın əsas arqumenti ondan ibarətdir ki, guya Dağlıq Qarabağ ilkin olaraq Qafqaz Bürosu tərəfindən 1921-ci ildə Ermənistana verilib, lakin bu qərar İosif Stalin tərəfindən Azərbaycanın xeyrinə ləğv edilib. Erməni lider iddia edir ki, guya Stalin Lenin və Atatürklə Qarabağın Azərbaycana verilməsi ilə bağlı sövdələşib. Müəllif vurğulayır ki, etnik ermənilərin çoxluq təşkil etdiyi Qafqaz Bürosunda həqiqətən Dağlıq Qarabağı əvvəlcə Ermənistana vermək istəyiblər, lakin bu ərazinin Ermənistandan daha çox Azərbaycana bağlı olduğunu nəzərə alaraq, 1921-ci il iyulun 5-də həmin qərar ləğv edilib. Faktiki olaraq, qərarın mətnində Qarabağ və Azərbaycana münasibətdə "saxlanılsın" sözü işlənilir: "Müsəlmanlar və ermənilər arasında sülhün zəruriliyini və dağlıq və aran Qarabağ arasında iqtisadi əlaqələri nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, ona muxtar vilayətin tərkibinə daxil edilən Şuşa şəhəri paytaxt olmaqla geniş vilayət muxtariyyəti verilsin". Bu, o deməkdir ki, Qarabağ artıq Azərbaycanın bir hissəsi idi və Qafqaz Bürosu sadəcə onu Ermənistana verməyərək, Azərbaycanın hüdudları daxilində saxlamağa qərar verib.

Qorovits sonra qeyd edir ki, Paşinyan heç bir anlayışı olmadığı beynəlxalq hüquq barəsində mülahizələr yürütməyə başladı. Erməni lider bəyan etdi ki, əgər Azərbaycan Sovet İttifaqının ərazi bütövlüyünə hörmət etsəydi, o, müstəqil dövlət olmazdı. Əgər Azərbaycan bunu edibsə, onda Dağlıq Qarabağın öz müqəddəratını həll etməsinə də hörmətlə yanaşmalıdır, çünki erməni liderin fikrincə, Dağlıq Qarabağ erməniləri azərbaycanlıların da istifadə etdikləri hüquqdan həyata keçiriblər - SSRİ ilə vidalaşıblar. Lakin siyasi icmalçının vurğuladığına görə, erməni baş nazirin beynəlxalq hüquq sahəsində bilikləri o qədər azdır ki, o, Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkib hissəsi olduğunu və sovet Konstitusiyasına əsasən respublikanın tərkibindən çıxmaq, Dağlıq Qarabağın müstəqil və ya Ermənistanın tərkibində olması üçün hər bir addımın istər Azərbaycan SSR, istərsə də SSRİ Konstitusiyasına uyğun şəkildə həyata keçirilməsinin zəruriliyini başa düşmür. Lakin bu, baş vermədi. Belə ki, SSRİ və Azərbaycan SSR-in qanunverici orqanları Dağlıq Qarabağın Ermənistana verilməsini rədd etdilər.

Müəllif sonra yazır ki, Paşinyan BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə dörd qətnaməsini müzakirə edərkən uğursuz seçim edib. Erməni lider iddia edib ki, guya BMT TŞ dərhal və qeyd-şərtsiz atəşkəs rejiminin tətbiqini tələb edib, belə ki, Azərbaycan bu qaydaları pozub və ərazilərini itirib. Əslində isə, İlham Əliyevin də qeyd etdiyi kimi, BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistanın hərbi təcavüzü dayandırmasını və öz qoşunlarını işğal etdiyi Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını, həmçinin bütün məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına şərait yaradılmasını tələb edib. Prezident Əliyev beynəlxalq ictimaiyyəti, xüsusən ATƏT-in Minsk qrupunu Ermənistana özünün qeyri-konstruktiv mövqeyindən imtina etmək üçün təzyiqi gücləndirməyə çağırıb.

Məqalədə o da qeyd olunur ki, Paşinyan işğal olunmuş Dağlıq Qarabağ ərazisində Ermənistanın yaratdığı oyuncaq rejimin danışıqlarda iştirakını arzuladığını bildirib. O, özünün bu təklifini hətta "mikroinqilab" adlandıraraq, onu auditoriyaya hansısa yenilik kimi təqdim edib. Əslində, erməni separatçıların danışıqlar masası arxasına oturtmaq Ermənistanın son 20 ildə ardıcıl olaraq göstərdiyi səylərdir. Lakin Azərbaycan üçtərəfli formatı sadəcə ona görə rədd edir ki, bu formatın özü münaqişənin iki əsas tərəfinin (Ermənistan və Azərbaycan) formuluna söykənir və burada iki maraqlı tərəf - Dağlıq Qarabağın erməni və azərbaycanlı icması var. Qeyd olunur ki, rəsmi Yerevan tərəfindən Xankəndidə (Stepanakert) qurulmuş erməni hərbi rejiminin heç bir legitimliyi yoxdur, çünki onlar müharibə vaxtı Qarabağın azərbaycanlı icmasına qarşı etnik təmizləmə həyata keçiriblər.

Müəllif yazır ki, Paşinyan özü də bunu dərk etmədən təsdiq etdi ki, Ermənistanın hərbi qulluqçuları Azərbaycanın işğal olunmuş ərazilərində xidmət edirlər. O, açıq şəkildə bəyan etdi ki, oğlu Dağlıq Qarabağda hərbi xidmətdədir və bununla da erməni təbliğatının Qarabağ ermənilərinin "özünümüdafiə ordusu" ilə təhlükəsizliklərini təmin etdikləri barədə iddiaları ifşa edib.

Məqalənin sonunda Qorovits yazır: "Söz dueli Paşinyan üçün uğursuz başa çatdı, belə ki, o, Əliyevin bəyanatlarından ciddi "yaralar" və faktlara söykənən arqumentləri təqdim etmək bacarıqsızlığı ucbatından böyük zərbə aldı".

## Vahe Hovhannisyan: "Münxendən sonra Paşinyanın komandası yerin altına girdi"



"Münxendən sonra Paşinyanın komandası yerin altına girdi. Möhtəşəm parlamentdən əsər əlamət qalmadı."37 konstitusiyaya ibadət edənlərin" heç biri məsələ ilə bağlı fikir söyləmədilər". SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bu fikirləri sabiq erməni deputat "Altenativ layihələr" qrupunun üzvü Vahe Hovhannisyan Fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri şərh edərkən deyib. Onun sözlərinə görə, baş verənlər təkcə Paşinyanın faciəsi deyil, bu o deməkdir ki, ölkədə siyasi çoxluq, siyasi sistem, siyasi düşüncə yoxdur və buna görə də bu və digər məsələlərdə böyük bir uğursuzluğun qarşısını almaq üçün zəmanət yoxdur: "Bu çox ciddi məsələdir və bununla bağlı narahat olmaq lazımdır. Dövlətimizdə olan bu vəziyyət bizim üçün ən böyük riskdir. Bu o deməkdir ki, bugünkü siyasi düşüncə və mənbələr ölkəni irəliləyə apara bilməz".

"Qarşımızda duran əsas sual Azərbaycanla qarşıdurma içində olub-olmamaqdan ibarətdir. Daha Qalib gələn tərəf daha tez modernləşən, sağlam siyasi təfəkkürə, sağlam cəmiyyətə sahib olan, müasir dövlət olacaq".

***Nailə Məhərrəmova***

## Brenda Şaffer: "Nə üçün oğlunuz Dağlıq Qarabağda hərbi xidmətdədir?



Amerikalı-israilli professor Brenda Şaffer Ermənistanın Baş naziri Nikol Paşinyanın Münhen Təhlükəsizlik Konfransındakı çıxışını "Twitter" sosial şəbəkəsindən şərh edib. SİA xəbər verir ki, Şaffer Paşinyan və ailəsini əks etdirən fotonu paylaşaraq yazıb: "Paşinyan, siz 2020-ci il Münhen Təhlükəsizlik Konfransında qeyd etmisiniz ki, Dağlıq Qarabağ Ermənistandan ayrı bir subyektdir. Bəs nə üçün öz oğlunuz Dağlıq Qarabağda hərbi xitmətə gedib?".

Qeyd edək ki, Brenda Şaffer eyni zamanda Amerika Elmi Siyasi Assosiasiyasının Xarici Siyasət Bölməsinin keçmiş prezidentidir. Harvard Universiteti nəzdindəki Kennedi hökumət məktəbində Xəzər təhsil proqramının araşdırma sədri kimi də fəaliyyət göstərib.

## Marqarit Yesayan: "Mücadiləmiz puç oldu"



"Nə qədər düşünməmək, Münhendəki erməni məğlubiyyətini xatırlamamaq istəyiriksə alınmır və bir növ düşünməyə də, xəcalət çəkməyə də, hətta əzab çəkməyə də məhkumluq var". SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu keçmiş millət vəkili Marqarit Yesayan özünün Facebook səhifəsində yazır. Özünün Facebook səhifəsində paylaşımında keçmiş millət vəkili ermənilərin bu vaxta kimi olan "mücadiləsinin" puç olduğunu yazır. Marqarit Yesayan öz səhifəsində yazır ki, 30 ilə yaxın müddətdə çəkdikləri əzabları boşuna hesab edir. Döyüşlər zamanı itgilərin verilməsi, hərbçilərin həyatını itirməsi, ermənilərin bu itgilərə görə acı çəkməsinə görə təəssüf hissi keçirən Yesayan Paşinyanın Münhendəki məğlubiyyətinin fonunda bu vaxta qədərki mübarizələrinin puça çıxdığına görə əzab çəkdiyini gizlətmir.

"Millətin milli müqaviməti, nikbinliyi, mübarizəsi boşa çıxdı? İnsanlarımızın 30 ilini, hamımızın milli müqavimətimizi, ümummilli qürurumuzu, yaşamaq səylərimizi düşünərək bir növ alçaq, halsız bir hiss edirəm özümü və düşünürəm ki, bunlar boşa getdilər? İndi oturun və baxın ki, biz düşmənimizin ayaqları altındaydıq, gülünc gündəyik bu acınacaqlı məğlubiyyətə görə", deyə keçmiş millət vəkili Marqarit Yesayan öz səhifəsində yazıb.

***İnam Hacıyev***

# Erməni yalanı və onun ifşası

***"Ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər. Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır". Bu fikirləri fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı Prezident İlham Əliyev bildirib. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdiyini diqqətə çatdıran dövlət başçısı bu qətnamələrin tələblərinin hələ də yerinə yetirilmədiyini bildirib.***







Ermənilər bütün dövlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıblar. Mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Bütün keçdikləri yolda saxta tarix formalaşdırmaları ilə dünyada seçilib, tanınıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışı əlbəttə ki, bütün dünyaya bir mesaj oldu ki, erməni kimdir? Xislətində nə yatır?

### TARİXİ SAVADSIZLIQ VƏ SAXTA TARİX YAZMAQ İDDİASI

Keçirilən müzakirələrdə Azərbaycanla bağlı dövlət başçısı tərəfindən tarixi faktlar beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı və Paşinyanın yalanları ifşa edildi. Ermənistanın Azərbaycana qarşı işğalçılıq və etnik təmizləmə siyasəti apardığı bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Prezident İlham Əliyev Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini və işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti apardığını, həmçinin Xocalı soyqırımını törətdiyini bəyan etdi, faktların dili ilə. Amma Paşinyan necə danışdı? Saxta faktlar, uydurma dəlillər ilə.

Tarix boyu Şərq və Qərb alimləri onların milli kimliyi, keyfiyyətləri ilə bağlı araşdırmalarında mübaliğəsi olmayan fikirlərini qələmə alarkən belə bütün parametrlərdən ölçülərini parlaq və işıqlı şəkildə təqdim ediblər. Bu "ölkə"nin səyyahı olan və bir neçə gün yaşadığı "məmləkət" haqqında təəssüratların gizlətməyən fransalı Qraf De Şole "ermənilərin yoxsulluq və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm oyatmasına baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilməzdim"- deyə yazırdı. "Türklərlə iş görəndə sözlə danışmaq kifayətdir, müqavilə bağlamağa da ehtiyac yoxdur..., erməni ilə belə bir fikriniz olarsa, onda heç bir sənədləşmə aparmağın əhəmiyyəti yoxdur, sadəcə şərə rast gələcəksiniz". Bu isə alman səyyahı Alferd Kertenin təəssüratlarından sətirlərdir.

Dünyanın istənilən bir ölkəsinin qələm əhlindən, siyasətçisindən ermənilərlə bağlı sərt mesaja təsadüf olunur. O qədər iyrənc və qorxuncdur ki, milli xüsusiyyətini qısa bir zamanda sezmək olur. Məşhur fars şairi Sədi Şirazinin ermənini yer üzünün ilanı, insanlığın düşməni kimi qələmə verməklə nə qədər haqlı imiş. Bəli, biz erməni kimliyini dünya xalqlarının tanınan şəxsiyyətlərinin dili ilə görürük və belə nümunələr istənilən qədərdir. Bu gün tarixdə baş verən hadisələrin davamı müxtəlif yollarla həyata keçirilir. Eyni siyasətin müasir dövrümüzdə inikasını görürük. Bu fikirlərdəki həqiqət əsaslıdır. Dili hibrit, yəni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilərin ünvanına deyilənlər elə onlara məxsus olan bu "dəyərlər"dən qaynaqlanır. O "xalq"ın əfsuslar olsun ki, qonşusu azərbaycanlılardır. Məğrur, sözünün gücü, əməli, tarixi, irsi olan, dünyanın marağında olan bir dövlətlə qonşu olublar. Amma hərdən düşünürəm ki, ermənilər tarixi kökü olan azərbaycanlıların qonşusu olmasaydılar, necə dünya çıxa bilər, mənim mətbəxim, musiqim, dilim, ərazim vardı, - deyə bilərdi.

Azərbaycan torpaqları ilə bərabər onun milli-mədəni sərvətlərini də mənimsəməyə çalışan mənfur erməni xisləti öz keçmiş peşəsini davamı ilə "zəngin dövlət" varisinə çevrilmək niyyətindədir. Azərbaycan öz varidatını, mədəniyyətini dünyaya təqdim etdiyi, YUNESKO-nun nadir əsərləri sırasında yer aldığı zamanda ermənilər yenidən "tarixi missiyasını" gerçəkləşdirməkdə davam edir. Nikol Paşinyanın "... erməni kralı Böyük Tiqran romalı hərbi lider Pompeylə danışıqlar aparan zaman bütün Cənubi Qafqazda və bütün dünyada Azərbaycan adlı ölkə olmayıb" - deməsi tarixi savadı olmadığından irəli gəlməklə yanaşı, onun yalançı tarixə sahib olan bir dövlət haqqında danışığını ortaya qoymuş oldu. Eyni zamanda Çar Tiqranın və ya Paşinyanın bəhs etdiyi digər sülalələrin dövrünün münaqişənin həllinə dəxli olmayan tamamilə yersiz məsələlər idi. Bəli, həqiqət bir daha bəlli olur. Erməni, sən tarix boyu bu iddialarla çıxış etmisən.

### "ONLAR YERLİ ERMƏNİLƏR İDİ, ERMƏNİSTANDAN OLAN ERMƏNİLƏR VƏ DİASPORDAN OLAN ERMƏNİLƏR İDİ"

Amma Azərbaycan Prezidentinin tutarlı faktlarla çıxışı hər bir kəsdə dövlətimiz, onun Lideri ətrafında ən yüksək fikirləri formalaşdırmış oldu. "Xalqımız etnik təmizləməyə məruz qalıb. 1992-ci ildə Ermənistanın əvvəlki rejimi müharibə cinayəti - Xocalı soyqırımını törətdi. Nəticədə aralarında 106 qadın, 63 uşaq olmaqla, 613 günahsız mülki şəxs vəhşicəsinə öldürüldü. Xocalı soyqırımını 10-dan artıq ölkə tanıyır". Bu tarixin dili ilə söylənilən fikirlərdir ki, Prezidentimizin çıxışı hər bir Azərbaycanlını qürurlandırmış oldu: "Mən tamamilə əminəm ki, biz hər ikimiz buraya həqiqəti demək üçün gəlmişik. Mənim giriş nitqimdə dediklərim 100 faiz həqiqətdir. Hansılar ki, elə indi yoxlanıla bilər. Sadəcə, internetə daxil olub istinad etdiyim həmin sənədləri taparaq siz kimin həqiqəti deyib-demədiyini anlaya bilərsiniz". Cənab Prezident Xocalıda soyqırımı törədənlərin adlarının hamıya məlum olduğuun bildirib: "Onlar yerli ermənilər idi, Ermənistandan olan ermənilər və diaspordan olan ermənilər idi. Bu şəxslərin adları hamıya məlumdur. Bu barədə çoxlu kitablar və beynəlxalq məqalələr çap olunub. Ona görə azərbaycanlıların özlərinin 63 uşağı, 100 qadını vəhşicəsinə öldürdüyünü demək, eyni zamanda, 1000 nəfərin itkin düşdüyünü söyləmək, bu, sinizmin zirvəsidir". Bu çıxışda sadə və anlaşıqlı dildə erməni kimliyi özünün təsdiq etmiş oldu.

### PAŞİNYAN BU CÜR YÜKSƏK BEYNƏLXALQ PODİUMLARA ÇIXMAĞA HAZIR DEYİL

Bu gün də ermənilər haqqında yazılan yazılarda, söylənilən fikirlərdə onların səciyyəvi xüsusiyyətləri yer alır. Fakt olmadan söylənilən fikirlər, siyasi savadsızlıq dünyanın ekspertlərinin diqqətindən kənarda qalmayıb. Elə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında debatlarla bağlı Macarıstanın Dunayvaroş Universitetinin tədqiqatçısı Oleksandr Boyko Azərbaycan Liderinin çıxışında çoxillik təcrübənin özünü göstərdiyini bildirib: "Bunu öz inqilabları haqqında (sülh və ya qeyri-sülh, mikro yaxud makro) dünyaya car çəkən erməni baş nazir haqqında söyləmək mümkün deyil. Onun fikirləri müzakirə olunan mövzuya aid deyildi. Bu, kimə maraqlı idi ki? Hiss olunurdu ki, Paşinyan bu cür yüksək beynəlxalq podiumlara çıxmağa hazır deyil".

Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktor müavini Darya Qrevtsova isə Azərbaycan Prezidenti İlham Əliyevin bir neçə dəfə Nikol Paşinyanın səhvlərini tutduğunu söyləyib: "O, bunu Stalinin heç də Dağlıq Qarabağı Azərbaycanın tərkibinə vermədiyini və Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalacağını təsdiq etməklə etdi. Həmçinin, Prezident İlham Əliyev Şaumyan rayonunun sovet dövründə Dağlıq Qarabağa məxsus olması barədə Paşinyanın iddiasını da ifşa edib. O qeyd edib ki, bu rayon heç vaxt Dağlıq Qarabağın tərkibində olmayıb. Hətta Nikol Paşinyan tələsik və çaşqın vəziyyətdə öz səhvini etiraf etməli olub". Ekspert onu da bildirib ki, bu cür mötəbər tədbirlərdə faktlarla bağlı səhvlərə yol verilməsi tamamilə qəbuledilməzdir. Hər hansı lider bir dəfə səhvə yol verə bilər, lakin bütün dünya arenası qarşısında, mühüm siyasi diskussiya zamanı, dünya təhlükəsizliyi üzrə əsas tədbirdə bunu etmək sadəcə bağışlanmazdır, - deyə bildirib.

ABŞ-ın "The USA Tribune" qəzetində siyasi icmalçı Robert Qorovitsin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin müzakirələrinə həsr olunmuş "Münhendə söz dueli və onun qalib "revolveri" sərlövhəli məqaləsi dərc olunub. Müəllif yazır ki, söz dueli üçün müasir dünyada ən yaxşı meydan BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyası, Davos forumu, Münhen konfransı və ölkələrin liderlərinin öz mövqelərini və üstünlüklərini nümayiş etdirdikləri digər platformalardır. Müəllif qeyd edir ki, iki ölkənin liderləri auditoriyaya Qarabağın tarixinə dair öz versiyalarını təqdim etdilər. O vurğulayır: "Erməni lider nala-mıxa döyürdü, artıq tükənmiş arqumentləri təkrar edirdi, ermənilərin guya Cənubi Qafqazın yerli sakinləri və Qarabağın tarixən Ermənistanın bir hissəsi olduğunu söyləyirdi". Paşinyanın irəli sürdüyü arqumentə nəzər salaraq tarixi həqiqətləri diqqətə çatdırıb. Qorovits onu da qeyd edir ki, Paşinyan heç bir anlayışı olmadığı beynəlxalq hüquq barəsində mülahizələr yürütməyə başladı. Müəllif yazır ki, Paşinyan BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə dörd qətnaməsini müzakirə edərkən uğursuz seçim edib. Erməni lider iddia edib ki, guya BMT TŞ dərhal və qeyd-şərtsiz atəşkəs rejiminin tətbiqini tələb edib, belə ki, Azərbaycan bu qaydaları pozub və ərazilərini itirib. Əslində isə, Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistanın hərbi təcavüzü dayandırmasını və öz qoşunlarını işğal etdiyi Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını, həmçinin bütün məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına şərait yaradılmasını tələb edib. "Söz dueli Paşinyan üçün uğursuz başa çatdı, belə ki, o, Cənab İlham Əliyevin bəyanatlarından ciddi "yaralar" və faktlara söykənən arqumentləri təqdim etmək bacarıqsızlığı ucbatından böyük zərbə aldı".

Bəli, dünya ictimaiyyətinə bir daha bəlli oldu ki, Ermənistanın hərbi qulluqçuları Azərbaycanın işğal olunmuş ərazilərində xidmət edirlər. Prezident İlham Əliyevin tutarlı arqumentləri Azərbaycan həqiqətləri ətrafında olan məlumatları daha da möhkəmləndirdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xocalı qətliamına aparan yol:
# gerçək tarixin xronoloji təhlili




**II YAZI**

SSRİ dağılmışdı. Bütün müttəfiq respublikalar beynəlxalq birliyin subyektinə çevrilmişdi. Moskvanın erməni lobbisinin də hərtərəfli dəstəyi ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirmək cəhdi Azərbaycan xalqının möhtəşəm direnişi nəticəsində, baş tutmamışdı. Bu qədim Azərbaycan torpağı beynəlxaq birliklər, o cümlədən, BMT tərəfindən Azərbaycan Respublikasının ərazisi olaraq tanınmışdı. Təbii ki, bütün çabalarına rəğmən həm Kremlin, həm də erməni lobbisinin istəklərinə nail ola bilməmələri onları daha da hiddətləndirmişdi. Çünki məhz ermənilərin istəklərinin reallaşması Azərbaycan tərəfinin ata-baba yurdlarının əldən çıxması ilə barışmayacağı, münaqişənin uzun müddət davam edəcəyi, davam edən münaqişədən isə Moskvanın öz geosiyasi maraqları üçün istifadə edəcəyi anlamına gəlirdi. İlkin planın baş tutmadığı təqdirdə Kreml yeni planını işə saldı.

Bir məqamı xüsusi qeyd etməyi vacib hesab edirəm. Dağlıq Qarabağda yaşayan ermənilərin mütləq əksəriyyəti bu qarşıdurmanın birbaşa Moskvadan idarə olunduğunu anlayır və onun genişlənməsinin qarşısını almağa cəhd göstərirdilər. Məsələn, beş erməni kəndini birləşdirən Naxçıvanik sovetliyinin əhalisi, hər kənddən bir nümayəndənin və kənd sovetinin Hamlet adlı sədrinin, eləcə də onun katibinin imzası və sovetliyin möhürü ilə təsdiq edilmiş məktub hazırlayıb oktyabr ayının 24-də xüsusi yolla bizə göndərmişdilər. Məktubda Azərbaycan hökumətindən erməni kəndlərində məskən salan quldur dəstələrinin çıxarılmasına kömək etmələri xahiş olunur və Azərbaycan Bayrağının kənddə qaldırılmasına, Azərbaycan qanunlarına əməl etməyə hazır olduqları vurğulanırdı. O zaman AXC Ağdam şöbəsinin sədri, millət vəkili Eldar Bağırovla birlikdə məktubu Bakıya gətirdik. Məktubla bağlı Əbülfəz Elçibəylə və Ağdamdan seçilmiş digər millət vəkili Tamerlan Qarayevlə söhbət etdik. Hər ikisi bu məsələni çox gizli saxlamağı tövsiyə edərək, bunun birbaşa Kremlin siyasətinin pozulması olduğunu qeyd etdilər. Ali Sovetin sessiyasında, oktyabr ayının 28-də Eldar Bağırov o zaman iç üzü hələ açılmayan, ustalıqla maskalanan Rəhim Qazıyevlə də məktub barədə söhbət etmiş və iki surətdən ibarət olan həmin məktubun bir surətini ona vermişdi. İki gün sonra Eldar Bağırov Bakıda qətlə yetirildi, “morq”da cibindən bütün sənədləri götürüldü, lakin cibində qalan həmin məktubun surəti tapılmadı. Sonralar, 1992-ci ilin iyun ayında Naxçıvanik və digər dörd kənd quldurlardan təmizləndiyi zaman, həmin kənddən əsir alınmış yerli ermənilərin dediklərinə görə, noyabr ayının əvvəlində məktuba imza atmış yeddi nəfərin hamısı erməni quldurları tərəfindən kəndin ortasında güllələnib. Bütün bu və digər faktlar bizdən tələb edirdi ki, Kremlin bu məkrli, qeyri-insani siyasətinin ayaq açıb yeriməməsi üçün daha ağıllı taktika seçək. Ancaq məhz içimizə salınaraq, özlərini vətən və millət fədaisi kimi göstərən, əslində imperiya siyasətinin reallaşmasına xidmət edən qüvvələr belə taktika seçilməsinə var gücləri ilə mane olurdular. Noyabr ayında AXC Ali Məclisində Dağlıq Qarabağın azərbaycanlı yaşayış məntəqələrinin Ağdam və Şuşa rayon təşkilatlarından ayrılması haqqında qərarı da, həmin rayon və kəndlərin de-fakto hərakatçı qüvvələrdən ayrı salınması da, şübhə yoxdu ki, həmin məkrli siyasətə xidmətin tərkib hissəsi idi. Beləliklə, Qarabağın bütün yaşayış məntəqələri, Azərbaycanda o zaman ən real qüvvə olan AXC-dən ayrıldılar, nəticədə köməksiz vəziyyətdə qaldılar. Həmçinin, Dağlıq Qarabağda fəaliyyət göstərən Azərbaycan hökumətinin Təşkilat Komitəsinin işinin iflic vəziyyətə gətirilməsi planı da reallaşdırılırdı. Komitənin ən fəal və milli ruhlu əməkdaşı, Təşkilat Komitəsinin prokuroru, erməni separatçılarına qarşı qətiyyətli və barışmaz mübarizəsi ilə seçilən Şükür Rzayev girov götürüldü. Dərhal Qatır Məmməd təxəllüsü ilə tanınan Yaqub Rzayevin əli ilə bir neçə mühüm erməni əsir alınaraq, Şükür Rzayev xilas edildi. Bundan sonra təhlükə ilə üz-üzə qalan Təşkilat Komitəsi Xankəndini tərk edərək Ağdama köçürüldü. Bütün bu hazırlıqlardan sonra Kremldən təlimat alan ermənilər 1991-ci il noyabrın əvvəllərindən başlayaraq ayrı-ayrı kəndlərə silahlı hücumlara başladılar. Vəziyyəti yerində araşdırmaq məqsədilə bölgəyə səfər edən Azərbaycan Respublikasının yüksək rütbəli dövlət məmurlarının və Dağlıq Qarabağ hadisələrində daim ədalətli mövqe tutan, prokuror Şükür Rzayevlə birgə erməni separatçılarının qəniminə çevrilən rus əsilli general Y.Kovalyovun içərisində olduğu helikopter vuruldu və bütün helikopterdəkilər qətlə yetirildi. Belə bir zamanda respublikada, xüsusən paytaxt Bakıda milli birlik, xalqla hakimiyyət arasında etimad yaradılmalı olduğu halda, o zamankı hakimiyyətin qətiyyətsizliyindən istifadə etməyə çalışan, rəhbər heyətin əksəriyyəti Kremlin planına yardım edən AXC xalqı münaqişənin həllində birliyə səfərbər etmək əvəzinə, qarşıdurmanı gücləndirir, Qarabağda baş verən hər bir olaya görə hakimiyyəti sadəcə qınamır,xalqı onun üzərinə qaldırır,bir sözlə, hakimiyyət uğrunda savaşa cəlb edirdi. Dekabrın sonlarında, o zaman Azərbaycan Respublikası Ali Soveti Xarici Əlaqələr Komissiyasının sədri işləyən, AXC-də “Primakov uşaqları”nın “patronu” kimi tanınan İsa Qəmbərin “Beş-altı Azərbaycan kəndini ermənilərə verək, hakimiyyəti istefaya göndərək” deyə, şəxsən məndən bu sahədə kömək istəməsi də faktdır və onun təmsil (De-fakto rəhbərlik) elədiyi qurumun niyyətindən xəbər verirdi.

1992-ci ilin yanvarından başlayaraq Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə ardı-arası kəsilməyən hücumlar başladı. Köməksiz qalan yerli əhali təpədən dırnağa silahlanmış erməni quldurları və Sovet Ordusunun 366-cı polkunun hücumlarına mətanətlə sinə gərsələr də, qeyri-bərabər qüvvələr savaşında məğlub olaraq geri çəkilməli olurdular. Beləcə ard-arda Kərkicahan, Meşəli, Cəmilli, Malıbəyli, Quşçular, Qaradağlı, Xocavənd kəndləri işğal olundu. Malbəyli və Quşçular kənlərindən Ağdamın könüllüləri Abdal-Gülablı meşələrinin içi ilə insanları təxliyə etmələri bu kəndlərdə qırğının miqyasını azaltsa da, Qaradağlı kəndinə bu dəstək mümkün olmadı və Xocalıdan əvvəl həmin kənddə sözün tam mənasında qətliam törədildi. Beləliklə, Əsgəranla Xankənd arasında yeganə azərbaycanlı yaşayış məntəqəsi kimi Xocalı uzun müddət özünü qoruya bildi. Ancaq hadisələrin içində olan hər kəs bilirdi ki, ermənilər bu şəhərə xüsusi plan hazırlayırlar. Bunun da üç başlıca səbəbi var idi. Birinci səbəb Xocalı kəndinin qədim tarixə malik olması, bu yerlərin qədim türk məskənləri olduğunu sübut edən saysız-hesabsız tarixi abidələrin, o cümlədən Xocalı-Gədəbəy mədəniyyət nümunələrinin mövcudluğu idi ki, ermənilər hər zaman belə yaşayış məskənlərinə qarşı daha amansız olmuşlar. İkinci səbəb, 1988-ci ilin sentyabrında bu şəhərə hücum edən ermənilərin xeyli sayda itki verərək geri çəkilməyə məcbur edilmələri idi ki, bu fakt onları Xo-

# Xocalı qətliamına aparan yol: gerçək tarixin xronoloji təhlili










calıya və xocalılara qarşı daha da aqressivləşdirmişdi. Nəhayət üçüncü səbəb isə, Dağlıq Qarabağda yeganə aeroportun Xocalıda yerləşməsi idi ki, bu da ermənilərin Yerevan və Moskva ilə əlaqələrində mühüm əhəmiyyətli strateji maraq idi. Artıq bölgədə qalan yeganə azərbaycanlı yaşayış məntəqəsi olan şəhər gecə-gündüz artilleriya silahları ilə atəş altında saxlanılırdı. Bakıda başı hakimiyyət uğrunda savaşa qarışan həm iqtidar, həm də AXC rəhbərləri isə hər gün yalançı vədlər verir, əhaliyə kömək göndəriləcəyini deyir, ancaq heç bir yardım edilmirdi. Nəhayət Ağdamdakı könüllü müdafiə batalyonları bir araya gələrək, Xocalıda xilas üçün əməliyyat keçirməyi planlaşdırdılar. Fevralın 23-də keçirilməsi nəzərdə tutulan həmin əməliyyat da, o zaman Müdafiə Nazirliyinin nümayəndəsi kimi Ağdamda olan Fəhmin Hacıyev tərəfindən dayandırıldı. AXC yetkililərindən olan F.Hacıyevin sonradan bu əməliyyat planının dayandırılması əmrinin Bakıdan, konkret olaraq yenicə müdafiə naziri təyin edilmiş Tahir Əliyevdən gəldiyini desə də, bu faktın hələ də dəqiq araşdırılmaması da bir sıra məqamlardan xəbər verir. Xüsusilə, Gəncə dəmiryol idarəsi ilə birgə təxminən 20 kilometrlik trosla qatarı Ağdamdan Xocalıya göndərib, dinc əhalini çıxarmaq planının da pozulması, içimizdən Xocalıda daha böyük qırğın olmasında maraqlı qüvvələrin olduğunu deməyə tam əsas verir. Bəzi oxucular məni qınaya bilər. Biz bəzən tariximizin ayrı-ayrı məqamlarında içimizdəki düşmən dəyirmanına su tökən qüvvələrin varlığından vaz keçir, bunu düşmən əlinə fakt vermək kimi dəyərləndiririk. Nəzərə almırıq ki, əksər məğlubiyyətlərimizin başlıca səbəblərindən biri məhz içimizdə belə qüvvələrin olması, onların bilərəkdən,ya bilməyərəkdən yanlışlıqları, nəticədə ümummilli bəlalara səbəb olur ki, bunları da deməmək və gələcəkdə belə yanlışlıqların qaşısını almaq kimi mühüm borcumuzu yerinə yetirməməklə növbəti yanlış addım atmış oluruq. Ancaq mən real həqiqətlərə istinad edir və çıxardığım nəticə də ondan ibarətdir ki, Moskvadan təlimat alan bəzi qüvvələr və onların bu "ajan"lığından xəbərsiz olub, onlara inanan və ardınca kor-koranə irəliləyən sadə insanlar faciənin bu qədər dəhşətli olmasının qarşısının alınmasına da mane oldular ki, bu da nəticə etibarilə Azərbaycan xalqının gözünü qırmaq, xalqı təslimçiliyə sövq etmək kimi məkrli düşmən niyyətinin başlıca amili idi və etiraf edək ki, buna da müvəqqəti olsa belə nail oldular.

Xocalı qətliamı ilə bağlı ətraflı yazıb vaxt almağa lüzum görmürəm. Çünki faciə haqqında, onu törədənlər, onun miqyası, insan ağlına sığmayan vəhşət doğuran məqamları barədə kifayət qədər yazılıb və deyilib. Bu yazılanların və deyilənlərin cəmiyyət daxilində təkrarlanmasından daha çox, bu gün bütün bunları dünya ictimaiyyətinə çatdırmağa daha çox ehtiyac var ki, son illər həm dövlət və hakimiyyət qurumlarının, həm Heydər Əliyev Fondunun, həm də dövlətin bu sahədəki məqsədyönlü siyasətinə dəstək verən vətəndaş cəmiyyətinin genişmiqyaslı fəaliyyəti bunun üçün zəmin yaratmışdır. XOCALI QƏTLİAMI bəşər tarixinin ən qanlı, insanlıq normalarına sığmayan elə bir faciəsidir ki, bunu təkcə Azərbaycan xalqının faciəsi kimi qəbul etmək doğru deyil. Bu, ümumən insanlığın faciəsidir, bu, bütün dünyanın faciəsidir və məsələyə də bu kontekstdən yanaşmaq, onu bəşəri faciə kimi dünyaya tanıtmaq gərəkdir. Bu faciənin törədilməsinin səbəbləri sırasında erməni faşist düşüncəsi ilə rus imperialist siyasi təfəkkürünün başlıca rol oynaması isə danılmaz həqiqətdir. Məhz yazımı bu kontekstdən yazmağımda da məqsəd ölkə vətəndaşlarını, xüsusilə gənc nəsli həqiqətlərə söykənin tarixi gerçəkliklə mənən silahlandırmaq, gələcək dövlətçilik fəaliyyətimizdə yanlışlıqlardan mühafizə olunmalarına yardımçı olmaqdan ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinin və BDU-nun yubiley tədbirlərində vurğuladığı kimi, tarix hər zaman təkrarlanır. Təkrarlanan tariximizdə ötən hadisələrdə zərərimizin əsl səbəblərini doğru-düzgün bilmədən, yanlışlıqlarımızın gətirmiş olduğu ümummilli bəlalarımız haqqında müfəssəl məlumata malik olmadan, onların yenidən təkrarlanması təhlükəsi qaçılmazdır. Düşmən məlumdusa, ondan qorxmağa dəyməz. Qorxulu düşmən özünü sənə dost göstərib, arxadan zərbə vurmağı planlaşdırandır. Bunu atalarımız belə buyurub. Əlavə etməyə ehtiyac görürəm ki, ən qorxulusu isə, sənin qardaşın olub, gizlində düşmənlə əlbir olandır. Çünki onun sənə düşmənçilik edəcəyi ağlına gəlmir, reallıqda isə bunu edir və...

***Təhmasib Novruzov,***
***1989-92-ci illərdə AXC Ali Mclisinin üzvü,***
***"Azadlıq Hərakatçıları"***
***İctimai Birliyinin sədri***





# Paytaxtımızda ekoloji tarazlıq bərpa edilir





Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan genişmiqyaslı işlərin nəticəsində regionlarımızla yanaşı, paytaxt Bakının da inkişafı təmin olunub. Bakının siması köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Əsrlər boyu müxtəlif mədəniyyətlərin, dini inancların ahəngdarlıqla qovuşaraq, mükəmməl harmoniya yaratdığı əfsanəvi məkan olan Bakı Qız Qalası, Qala Divarları, Şirvanşahlar Saray Kompleksi, məscidləri, karvansaraları və digər memarlıq abidələri ilə sirli və sehrli bir aləmə çevrilib. Bura tariximizin daş yaddaşıdır, onun hər parçası keçmişimizin əbədiləşmiş məqamlarını özündə əks etdirir.

Son illər Bakıda həyata keçirilən ardıcıl inkişaf prosesi şəhərimizin tarixi ilə müasirliyini özündə birləşdirərək tamamilə yeni bir simadadır. Geniş vüsət alan abadlıq-quruculuq və yenidənqurma işləri paytaxtımıza yeni bir ahəng gətirib. Xüsusilə, böyük parkların, xiyabanların salınması və köhnə tikililərin sökülərək, yenilərinin inşası şəhərimizə yeni çalarlar əlavə edib. Şəhərin simasına xüsusi gözəllik verən yaşıllıqlar Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılmasına də təsirsiz ötməyib. Ekoloji fəlakət mənbəyi olan Balaxanıda, Bibiheybət neft mədənlərində, Böyükşorda aparılan işlər nəticəsini verib. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev Bakıda havanın keyfiyyətinin böyük dərəcədə yaxşılaşdığını diqqətə çəkərək, havanı çirkləndirən bir çox mənbələrin ləğv edildiyini bildirib: "Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları, xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıb. İkincisi, havanı və ekologiyanı böyük dərəcədə çirkləndirən "Qara şəhər" idi. İndi onun yerində "Ağ şəhər" yerləşir. Bu da, böyük şəhərsalma layihəsidir. Yaxın gələcəkdə neftayırma zavodunun o ərazidən köçürülməsi nəticəsində, həm bulvarın uzunluğu artacaq, həm də o zonada ekoloji vəziyyət daha da yaxşılaşacaq. Əlbəttə, Balaxanı zibilxanası havanı, demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi ekoloji təmiz zonaya çevrilib".

### "SON İLLƏRDƏ ƏKİLƏN AĞACLARIN SAYI BƏLKƏ DƏ 10-20 MİLYONU ÖTÜB"

Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, xüsusilə yaşıllaşdırmaya mühüm önəm vermiş, bu məqsədlə geniş və çoxşaxəli proqramlar qəbul olunmuş, irimiqyaslı tədbirlər həyata keçirilmişdir. Ulu Öndərin müəyyənləşdirdiyi ekoloji siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, yaşıllıq zolaqları genişləndirilir, ekoloji tarazlıq bərpa edilir, insanlar arasında təbiətə qayğı hissinin təbliğinə mühüm önəm verilir. Ətraf mühitin təhlükəsizliyinin, insanların sağlamlığının təmin edilməsi, yaşıllıqların artırılması, yeni ağacların əkilməsi bu gün diqqət mərkəzində saxlanılır. Ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etməklə yanaşı, atmosferi oksigenlə zənginləşdirmək və ictimaiyyətin diqqətini yaşıllıqların qorunmasına yönəltməkdir. Ağacların əkilməsi də şəhərin ekoloji vəziyyətini böyük dərəcədə yaxşılaşdırıb. Şəhərimizdə milyonlarla ağac əkilib, yeni parklar və istirahət mərkəzləri açılıb: "Ağacəkmə prosesi davam etdiriləcək" deyən Cənab Prezident keçən il Nəsiminin 650 illiyi ilə bağlı bir gündə 650 min ağac əkildiyini bildirib: "Son illərdə isə əkilən ağacların sayı bəlkə də 10-20 milyonu ötüb. Bu, çox müsbət haldır. Xüsusilə, təbiəti ağacla o qədər də zəngin olmayan bölgələrdə bu proses geniş vüsət alıbdır və almalıdır. Bununla paralel olaraq, çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası prosesi davam etdirilir. Abşeron yarımadasında bu işlər aparılır, aparılacaqdır. Bizim mövcud göllərin təmizlənməsi prosesi daha geniş vüsət almalıdır. Biz, hələlik, yalnız Böyükşor gölünün bir hissəsini təmizləmişik. Bu da, çox böyük layihədir. İndi digər hissənin və həmçinin, digər göllərin təmizlənməsi gündəlikdədir".

### "TƏBİƏTİN QORUNMASI HƏR BİR VƏTƏNDAŞIN İŞİ OLMALIDIR, ÇÜNKİ BU, BİZİM ÖLKƏMİZDİR, BİZİM HƏYATIMIZDIR"

Ətraf mühitin çirklənməsi və zərərli maddələrin normadan artıq təşkil etməsi insanların həyatına və ömrünün uzunluğuna mənfi təsir göstərir. "Bütün bunları biz edirik ki, Bakının ekoloji vəziyyəti yaxşılaşsın və insanların sağlamlığına ziyan vurmasın" deyən dövlət başçısı vaxtilə ekoloji vəziyyəti ağır olan Sumqayıtın indi ekoloji cəhətdən təmiz şəhər olduğunu bildirib: "Mən orada olarkən, sumqayıtlılara deyirəm ki, Sumqayıtın havası Bakının havasından daha təmizdir. Ancaq Bakının havası da böyük dərəcədə təmizlənib. Bizim əsas diqqət mərkəzimiz, məhz böyük şəhərlərdir, xüsusilə, Abşeron yarımadası və sənaye müəssisələri olan şəhərlər. Azərbaycanın qalan yerlərində təbiət toxunulmazdır, biz bunu qorumalıyıq və bütün bölgələrdə təbiət qorunmalıdır. Çünki bu, bizim sərvətimizdir... Təbiətin qorunması hər bir vətəndaşın işi olmalıdır, çünki bu, bizim ölkəmizdir, bizim həyatımızdır."

Bu sahədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın və onun təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyəti xüsusi qeyd edilməlidir. Bu birliyin səyləri nəticəsində, hazırda Bakıda yeni bir məhəllələrarası parklar formatı da tətbiq olunur. Bu gün Bakıda, davamlı olaraq, keçirilən ağacəkmə tədbirləri nəticəsində paytaxtımızın ərazisi abadlaşır, yaşıllıqlarla zənginləşir və ekoloji mühit sağlamlaşır.

*Nəzakət ƏLƏDDİNQIZI*

"Sosial sahədə aparılan islahatları müxtəlif istiqamətlərə bölmək mümkündür. Bura infrastruktur, məzmun, kadr, sosial ödənişlərin təkmilləşdirilməsi ilə bağlı islahatlar daxildir". SİA-nın xəbərinə görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktor müşaviri Yavər Məmmədov deyib. O bildirib ki, bu gün bütün dünyada sosial ödənişlərin insanlara çatdırılması üçün ən mütrərrəqqi üsullardan biri plastik kartlardan, yəni bank kartlarından istifadə sistemidir.



# Yeni dövriyyəyə buraxılacaq "pensiya kartı" sahibinə nə qazandıracaq?

Qurum rəsmisi qeyd edib ki, hazırda Azərbaycanda da çox böyük kontingentin ödənişləri bank kartları ilə edilir: "Bu gün hər kəsə məlumdur ki, istər pensiyaçılar, istərsə də sosial ödəniş alan şəxslərin hər birinin müəyyən kartı var. Bu kartların formasına baxsaq,onların müxtəlif beynəlxalq ödəniş sisteminə məxsus olduğunu görmək mümkündür".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu ilə tərəfdaşlıq edən banklar arasında danışıqların bitdiyini deyən Y. Məmmədov söyləyib ki, yaxın günlərdə qurumla "Beynəlxalq Bank" və "Kapital Bank" arasında saziş imzalanacaq:"Bu sazişə əsasən, banklar tərəfindən daha müasir, daha gözəl görünüşlü, eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin loqotipini özündə ehtiva edən sosial kart dizaynı hazırlanıb. Hazırda həmin kartların dizaynı "Visa electron" və "Mastercard" ödəniş sistemləri ilə razılaşdırılma ərəfəsindədir. Yaxın zamanlarda bu kartların dövriyyəyə buraxılması üçün banklar tərəfindən artıq sifariş veriləcək".

Fondunun direktor müşaviri vurğulayıb ki, sözügedən kartlar təkcə görünüş deyil, həm də mahiyyət baxımından öz sözünü deməlidir: "Belə ki, bu gün vətəndaşlarımızın həmin kartlardan vəsaitlərini çıxarmamaqda maraqlı olması üçün müəyyən işlər görülməlidir. Bu kartların əsasən ticarət müəssisələrində geniş istifadə olunması üçün biz bu müəssisələrlə danışıqları yekunlaşdırmaq üzərəyik. Biz ticarət müəssisələrinin bu məsələdə rəqabətə girməsində maraqlıyıq. Kartı təqdim edən vətəndaş nağdsız əməliyyat zamanı yaxşı endirim əldə etməlidir. Bu endirim olmadıqda vətəndaş vəsaiti kartda saxlamaqda maraqlı olmayacaq. Ticarət müəssisələri bu məsələdə bizə kömək etməlidirlər. Bəzi banklar tərəfindən "pensiyaçı kartı" adlı kart tətbiq olunub. Lakin bizim yeni tətbiq edəcəyimiz kartlar heç də bankların əhaliyə tətbiq edəcəyi digər kartlardan geri qalmayacaq".

Y. Məmmədov əlavə edib ki, Nazirlik tərəfindən dövriyyəyə buraxılacaq yeni kartlar ticarət müəssisələrinə təqdim olunduğu anda zaman onlara dərhal endirim tətbiq olunmalıdır.

*Nailə Məhərrəmova*

# "Azərbaycan Avropaya 20 milyard kubmetr qaz ixrac edəcək"



"Prezident İlham Əliyevin Münhen səfərini həm siyasi, həm iqtisadi cəhətdən kifayət qədər məsuldar səfər kimi qiymətləndirirəm. Dalıq Qarabağ məsələ ilə əlaqədar aparılan uğurlu debatla yanaşı, Azərbaycanla bağlı iqtisadi məsələlər də bu konfransda gündəmə gətirildi". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransındakı iştirakının iqtisadi perspektivlərini şərh edərkən deyib.

O bildirib ki, Prezident İlham Əliyev ilk növbədə enerji təhlükəsizliyi və enerji sərfiyyatı ilə bağlı dəyirmi masadakı müzakirələrdə iştirak edərək çıxış edib və enerji təhlükəsizliyində xüsusilə, Avropa və regionun enerji təhlükəsizliyinin formalaşmasında Azərbaycanın töhvəsi Prezident tərəfindən təqdim olundu: "Elə ölkələr var ki, hazırda onların neft idxalının, yəni neft istehlakının 40 faizi Azərbaycanın payına düşür. Eyni zamanda Azərbaycan yalnız neft ixracatı ilə deyil, eləcə də mavi qaz ixracatını artırmaqla regiondakı enerji təhlükəsizliyinə töhvə verməkdə olan əsas ölkələrdəndir. Xüsusilə də Cənub Qaz Dəhlizi sayəsində 7 milyard kubmetrə yaxın mavi qaz nəql edilir".

Vüqar Bayramov əlavə edib ki, Azərbaycan artıq 2020-ci ildə TAP layihəsi çərçivəsində bütün Avropaya mavi qaz nəql edəcək və bu ilkin mərhələdə Avropaya il ərzində 10 milyard kubmetr mavi qaz nəqli deməkdir, sonrakı mərhələlərdə isə Azərbaycanın Avropaya nəql etdiyi mavi qazın həcmi 20 milyard kubmetrə qədər artırılacaq: "Bu baxımdan təbii ki, Azərbaycanın regional proseslərdə və xüsusilə də enerji təhlükəsizliyinin formalaşmasında rolu və bu kontekstdən Azərbaycanın region üçün əhəmiyyəti Prezident tərəfindən qeyd edildi. Eyni zamanda Prezident tərəfindən bir sıra görüşlər oldu. Həmin görüşlərdə Azərbaycanın iqtisadi potensialının tədim edilməsi və xarici investisiyanın cəlb edilməsi məsələləri müzakirə olundu. Xüsusilə də bu gün aktual məsələlərdən olan alternativ enerji ilə bağlı Azərbaycanın hədəfləri gündəmə gətirildi. Həmçinin, alternativ enerji istehsalına da xarici investisiyanın cəlb edilməsi məsələsi müzakirə edilən məsələlərdəndir".

# Təhsil sahəsində islahatlar davamlıdır

*Dövlət başçısının Sərəncamı ilə Kürdəmir şəhərində yeni binanın tikintisi məqsədilə 2,0 (iki) milyon manat ayrılıb*





***Azərbaycanda dövlət başçısı tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin və təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına yeni imkanlar yaradıb. "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir", - deyən Azərbaycan Prezidenti ölkəmizdə savadlılığın təxminən 100 faiz olduğunu çıxışlarının birində bildirib: "Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar".***

Cənab İlham Əliyev Prezidentlik fəaliyyətinin ilk illərində "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etməsi əbəs deyildi. Qeyd etdiyimiz zaman məsafəsində təhsilin maddi-texniki bazasının gücləndirilməsi, onun infrastrukturunun müasir tələblər səviyyəsində təşkili və təhsilin prioritetlərinin dünya elminin inkişaf tendensiyaları istiqamətində qurulmasında əhəmiyyətli nailiyyətlər əldə edilib. Təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi məqsədi ilə dövlət proqramları qəbul edilmiş və layihələr həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılmışdır. Təhsil ocaqlarında informatika, laboratoriya otaqları, idman və akt zalları, hərbi otaqlar fəaliyyət göstərir, internet sistemi və müasir tədris avadanlıqları ilə təchiz olunub. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Son on altı ildə 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkənin bütün məktəblərinin 72 faizinin binası yeni tikilmiş və ya əsaslı təmir olunmuşdur. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində, 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmış, ikinci növbədə, oxuyan şagirdlərin sayı 16,8 faizə enmiş, başqa sözlə, şagirdlərin 83,2 faizinə, birinci növbədə, təhsil almaq imkanı yaradılmışdır.

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni təhsil müəssisələrin tikintisi ilə bağlı ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanan sərəncamlar təhsilin inkişafına davamlı dövlət qayğısının daha bir parlaq nümunəsidir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bir dənə də olsun qəzalı vəziyyətdə məktəb qalmasın. Bax, qarşıya belə məqsəd qoyulub".

Dövlət başçısının bu günlərdə imzaladığı "Kürdəmir şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamı ilə Kürdəmir şəhərində 5 nömrəli şəhər tam orta məktəbi üçün 960 şagird yerlik yeni binanın tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılıb.

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsil sahəsində həyata keçirdiyi layihələri də qeyd etməliyik. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində istifadəyə verilən məktəblər müasir standartlara uyğun olaraq qurulub. Fondun layihəsi üzrə inşa edilən Masazır qəsəbəsində 4 və 5 nömrəli, Beyləqan şəhərində 8 nömrəli, Xaçmaz rayonu Palıdlı, Yevlax rayonu Kövər, Şabran rayonu Gilavar kənd orta məktəblərində, Pirşağı qəsəbəsində 112 nömrəli, Binə qəsəbəsi 326 nömrəli tam orta məktəblərində təhsil prosesi uğurla davam edir.

Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri də gedir. Ümumiyyətlə, Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı uğurla reallaşmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq olunması haqqında" imzaladığı Sərəncam isə, təhsil islahatlarının daha sistemli aparılması və ölkənin inkişafına daha yüksək töhfələr vermək istiqamətində düşünülmüş konseptual bir sənəd oldu. Ötən müddət ərzində, strategiyanın həyata keçirilməsi nəticəsində, bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlmiş, uşaq və gənclərin təhsilalma imkanlarının genişləndirilməsi, müasir idarəetmə modellərinin tətbiqi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, ümumi təhsil müəssisələrinin kadrlarla təminatı, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması də s. əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Keyfiyyətcə yeni, daha yüksək tarixi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan təhsil sahəsində, eləcə də, digər sahələrdə bu uğurların əldə olunmasına ölkədəki sabitlik və təhlükəsizlik əsas şərtdir.

***Zümrüd BAYRAMOVA***

# "Azerbaijan Digital Hub" proqramının rəqəmsal iqtisadiyyat quruculuğuna töhfəsi müzakirə olunub



Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkətinin icra etdiyi "Azerbaijan Digital Hub" proqramı Bakıda 13-14 fevral tarixlərində baş tutmuş "Rəqəmsal İqtisadiyyat: müasir çağırışlar və real imkanlar" adlı beynəlxalq konfrans çərçivəsində Azərbaycanda rəqəmsal iqtisadiyyatın qurulması, xarici təcrübə, mövcud risklər, həllər kimi məsələlərə həsr olunan plenar sessiyada təqdim edilib.



Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) yerli və xarici ekspertlərin iştirakı ilə baş tutmuş tədbirdə çıxış edən AzerTelecom şirkətinin baş direktoru Fuad Allahverdiyev ölkəmizin rəqəmsal mərkəzə çevrilməsi istiqamətində icra edilən "Azerbaijan Digital Hub" proqramını tədqim edib, müasir dövrdə rəqəmsal transformasiya prosesləri barədə geniş danışıb. Fuad Allahverdiyev rəqəmsallaşmanın cəmiyyətlər və dövlətlər qarşısında inkişaf üçün yeni imkanlar açdığını, rəqəmsal iqtisadiyyat quruculuğu məsələsinin hazırda ölkəmiz üçün də mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Fuad Allahverdiyev proqram çərçivəsində infrastruktur quruculuğu layihələri barədə danışıb, ölkə daxilində fiber-optik kabel xətlərinin çəkilməsi üçün Azərbaycan Dəmir Yolları QSC ilə birgə icra edilən layihəni, eləcə də Azərbaycanla Orta Asiya ölkələri arasıda Xəzərin dibi ilə Transxəzər Fiber Optik kabel xəttinin çəkilməsi layihəsini qeyd edib. O bu layihələr sayəsində Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə rəqəmsal ipək yolunun formalaşacağını bildirib, "Digital Hub" proqramının son nəticədə ölkənin rəqəmsal mərkəzə çevrilməsi və rəqəmsal iqtisadiyyatın formalaşmasına töhfə verəcəyini vurğulayıb.

Tədbirdə çıxış edən digər məruzəçilər aidiyyatı mövzularda təqdimatlar ediblər, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğunda fərqli təcrübələr barədə fikir mübadiləsi aparıblar.

Beynəlxalq konfrans Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı, Təhsil Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Çinin Bir Kəmər Bir Yol Elm və Texnologiya Alyansının dəstəyi və Bakcell şirkətinin sponsorluğu ilə keçirilib.

AzerTelecom Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. AzerTelecom Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı Konsorsiumunun üzvüdür.

Rəqəmsal Ticarət Qovşağı Konsorsiumu - Azərbaycanda rəqəmsal infrastrukturun və transsərhəd elektron ticarət platformasının inkişafı və ölkənin mövqelərinin regional və qlobal miqyasda gücləndirilməsi üçün yaradılan dövlət-özəl tərəfdaşlığıdır. Konsorsiumun yaradılması haqqında saziş 9 oktyabr 2019-cu il tarixində Bakıda keçirilən "İpək Yolunun rəqəmsallaşdırılması" adlı rəqəmsal ticarət üzrə 3-cü forumda özəl şirkətlər olan PAŞA Bank, B.EST Solutions və AzerTelecom və dövlət sektorunu təmsil edən Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında "Asan İmza" mobil elektron imza vasitəsilə imzalanıb. Konsorsium, Azərbaycanın müasir rəqəmsal xidmətləri və infrastrukturunun tətbiqi və ölkənin rəqəmsal transformasiyasına təsir edən transsərhəd elektron xidmətlər infrastrukturunu inkişaf etdirmək məqsədi daşıyır. Konsorsium, Azərbaycanı dünya bazarlarına bağlamaq, eyni zamanda Azərbaycanın Avropa ilə Asiya arasında yeni Rəqəmsal Qovşaq kimi irəliləyişi üçün görünməmiş bir fürsət təqdim edir.



# Azərbaycan qış turizmi üçün də gözəl istirahət mərkəzidir



***Son illər həyata keçirilən sosial-iqtisadi layihələr, dövlət proqramları, siyasi sabitlik ölkəmizin inkişafını daha da sürətləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə reallaşan dövlət proqramları turizmin daha da inkişafına səbəb olub.***

Ölkəmizdə yüzlərlə turizm şirkətinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, beşulduzlu otellərin istifadəyə verilməsi, eləcə də, peşəkar kadrların hazırlanmasına diqqətin artırılması və s. Azərbaycanı turizm ölkəsi kimi tanıdıb. Ümumilikdə, Azərbaycanda turizmin inkişafı ilə bağlı böyük addımlar atılıb, layihələr həyata keçirilib. Xüsusilə, bölgələrdə bir neçə beşulduzlu otel istifadəyə verilib. Sevindirici haldır ki, bu reallıqların və turizm sahəsinə ayrılan diqqətin nəticəsində, son illərdə Azərbaycana gələn turistlərin sayında nəzərəçarpan artım müşahidə olunur. Ölkəmizin müxtəlif ərazilərində dünya standartlarına uyğun otellər, əyləncə mərkəzləri və istirahət zonaları yaradılıb. Müxtəlif görkəmdə və xidmətdə olan otellərin inşası buraya gələn axının yüksək səviyyədə təminatına əsas verir. Azərbaycanın Xaçmaz, Qəbələ, İsmayıllı, Şamaxı, Quba və Masallı kimi istirahət zonalarında istirahət edənlərin sayının artması Azərbaycan turizminə olan diqqətin göstəricisidir.

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaradıb. Azərbaycan, isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, o nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradılıb. Belə ki, məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açıb. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. Qədim buzlaqlar, dərin dərələr, heyrətamiz dağ gölləri, bitki və heyvan aləminin ekoloji xəzinəsi buradadır. İl boyu idman və istirahətə çox əlverişli iqlimi olan Şahdağın -20°C soyuq qışı +20°C isti yay axşamları ilə əvəzlənir. Bura, regionun ən böyük xizək kurortunun yerləşdiyi, dünyanın ən böyük milli parklarından biri üçün müqayisəolunmaz bir məkandır.

Qış-yay turizm kompleksi qapılarını qonaqların üzünə açdığı elə ilk günlərdən turistlərin böyük marağına səbəb olub. Qış turizminin inkişaf etdirilməsi ilə bağlı atılan növbəti addımlardan olan Qəbələdəki "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi oldu. Bu iri kompleksin inşası göstərdi ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksində nəhəng infrastruktur yaradılıb. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən, mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlərin yaradılması istiqamətində işlər davam etdirilir.

"Şahdağ" Qış-Yay Turizm, "Tufan" Dağ-Xizək Qış-Yay İstirahət Komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə olunan uğurların göstəricisidir.

"Şahdağ" Turizm Mərkəzində turistlərin istirahəti üçün bütün infrastrukturu yaradılıb, bura dünyanın nüfuzlu istirahət mərkəzləri ilə rəqabət apara biləcəyi məkandır. Yerli turistlərlə yanaşı, Qazaxıstan, Rusiya və Avropanın bir sıra ölkələrindən gələn turistlər də "Şahdağ" Turizm Mərkəzində dincəlirlər.

Turistlərin istirahəti üçün burada əlverişli hava şəraiti var, üç SPA mərkəzi fəaliyyət göstərir. Turistlərin idmanın 21 müxtəlif növü ilə məşğul olmaları üçün mərkəzdə geniş imkanlar yaradılıb. Burada yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Azərbaycana - Qəbələyə və Qusara səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkanlar qışda da turistlərin ən gözəl istirahət mərkəzidir.

Bütün bunlar göstərir ki, Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına təsirini göstərir.

***ZÜMRÜD BAYRAMOVA***



# Ədliyyə Akademiyasında "Daxili bacarıqların inkişafı" mövzusunda üçgünlük təlim keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə seçimi davam edir. Hazırda imtahanlarda uğur qazanmış 44 namizəd hakim vəzifəsinə hazırlanmaları üçün Ədliyyə Akademiyasında təşkil edilən tədris kursuna cəlb olunub. Bu kurslarda nüfuzlu yerli və beynəlxalq ekspertlərin iştirakı ilə mühüm və aktual mövzular tədris edilir. Onların məhkəmələrdə, həmçinin beynəlxalq təcrübəni öyrənmələri məqsədilə xarici dövlətlərdə staj keçmələri nəzərdə tutulur.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, hakimliyə namizədlərin tədris proqramına bir çox aktual mövzular, o cümlədən hakimlərin etik davranış qaydaları və deontologiyası ilə bağlı mövzular daxil edilib. Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində hakimlərin etik davranış məsələləri mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə 2007-ci il iyunun 22-də Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlər üçün spesifik əxlaq və etik tələbləri, onların peşə etikası məsələlərini, iş fəaliyyətindən kənar davranışını nizamlayan və peşə fəaliyyətinə münasibətini müəyyən edən Etik Davranış Kodeksi qəbul olunub. Dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanında Məhkəmə-Hüquq Şurasına həmin Kodeksin pozulması hallarına yol verən hakimlərin intizam məsuliyyətinin labüdlüyünün təmin olunması tapşırılıb.

Ədliyyə Akademiyasında kurs keçən hakimliyə namizədlərlə etik davranış məsələlərin tədrisinə mühüm önəm verilərək Etika Akademiyası ilə birgə "Daxili bacarıqların inkişafı" mövzusunda üçgünlük təlim keçirilib. Təlimin açılışında namizədlərin daxili bacarıqlarının inkişafı, onların yüksək davranış standartlarına və təsir mexanizmlərinə yiyələnmələri üçün təlimin əhəmiyyəti qeyd olunub.

Tədbirdə Böyük Britaniyanın ICM institutunun HR üzrə mütəxəssisi, etiket və yüksək standartlar üzrə təlimçi-hüquqşünas Günel İbrahimin mövzu ilə bağlı təqdimatı dinlənilib. Namizədlərə geyim kodeksi, protokol nitq, diksiya, natiqlik, söz ehtiyatının çoxaldılması, yaddaş məşqləri, stressə davamlılıq texnikaları aşılanıb.

# Ali məktəblərə qəbul imtahanında dəyişiklik edilib



Nazirlər Kabineti "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edib. AZƏRTAC xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, qəbul imtahanını rus dilində verən abituriyentlərin Azərbaycan dili (dövlət dili kimi) fənnindən ayrıca imtahan vermələri üçün imtahan müddəti 1 saat 30 dəqiqəyədək artırılıb. Qeyd edək ki, bundan əvvəl həmin imtahanın müddəti 45 dəqiqə olub.

# Nazirlik restoran sahiblərinə xəbərdarlıq etdi



Bəzi iaşə obyektlərindən və şadlıq saraylarından axşam saatlarında yenə də havaya tüstünün, iy-qoxunun yayılması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə şikayətlər daxil olub. Trend-in məlumatına görə, bunu jurnalistlərə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) departament direktoru Ramal Bağırov bildirib.

Onun sözlərinə görə, mütəxəssislər tərəfindən restoranlarda təkrar monitorinqlər aparılıb. Məlum olub ki, paytaxtın Nizami və Xətai rayonlarında fəaliyyət göstərən bəzi şadlıq saraylarında təmizləyici qurğular olmasına baxmayaraq, onlara texniki xidmət göstərilməməsi və filtrlərin vaxtaşırı təmizlənməməsi səbəbindən havaya normadan artıq tullantı atılır: "Restoranlarda təmizləyici qurğular quraşdırılsa da, təəssüf ki, onlara vaxtında qulluq edilmədiyindən havaya yenidən tüstü və iy-qoxu yayılır. Obyekt sahiblərinə xəbərdarlıqlar olunub ki, filtrləri vaxtında dəyişsinlər, havaya atılmaların qarşısını alsınlar və sakinlərə diskomfort yaratmasınlar".

## Orxan Məmmədov: Ölkədəki iqtisadi islahatlar qeyri-neft sektorunun inkişafına yönəlib



***Ölkədəki iqtisadi islahatlar qeyri-neft sektorunun inkişafına yönəlib və Azərbaycan bu sahədə kifayət qədər uğur qazanıb. Bunu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov USAID və KOBİA-nın birgə biznes-sammitində deyib. O bildirib ki, kiçik və orta biznes hər zaman ölkə iqtisadiyyatının inkişafında vacib rol oynayıb:***

"Azərbaycan biznesin inkişafı barədə son hesabatda 25-ci yeri tutub və daha çox islahatçı ölkələr sırasında yer alıb". O.Məmmədov əlavə edib ki, ümumi daxili məhsulda, məşğulluqda və ixracda kiçik və orta biznesin payının artması strateji hədəfdir: "2025-ci ilədək kiçik və orta biznesin ÜDM-də payını 60 faizə, məşğulluqda 70 faizə, ixracda 40 faizədək çatdırmaq planlaşdırılır".

# İşğalçı ölkədə referendum çəkişməsi

## Çaşqın Paşinyan bu dəfə Sarkisyanın konstitusiyanı dəyişdirir

***Ermənistan cəmiyyətində Paşinyan iqtidarından artan narazılığın getdikcə artması və bu gərginliyin pik nöqtəsinə çatmasına səbəb aprelin 5-də Konstitusiya Məhkəməsi məsələsi ilə bağlı referendum keçirilməsinin nəzərdə tutulmasıdır. Siyasi politoloqlar Nikol Paşinyanın məqsədinin Konstitusiya Məhkəməsini öz nəzarəti altına götürmək və ölkədə mütləq bir hakimiyyətlilik qurmaq olduğunu bildirirlər. Vurğulayırlar ki, Paşinyançı referendum qəbul olunsa, Ermənistan orta əsrlər diktaturası caynaqlarına düşəcək.***









Ermənistan Helsinki Komitəsinin sədri Avetik İşxanyan qeyd edir ki, Paşinyanın Konstitusiya Məhkəməsini ələ keçirmək planları üzündən ölkədə xaotik vəziyyət yaranır: “37-ci ildə baş verən hadisəni yada salmaq istəyirəm. Məktəb müəllimi direktor olmaq istəyir, zarafatla yazır ki, direktor əksinqilabi qrup yaradıb, direktoru bir neçə müəllimlə birlikdə aparıb güllələyirlər. Paşinyan da, həmçinin, Konstitusiya Məhkəməsini ələ keçirmək üçün bu məhkəmə sədrinə qarşı qurma cinayət işləri qaldırdı. Keçən ildən o, qanunazidd addımlar atır. İzdihamı məhkəmə üzərinə apardı, məhkəmənin qapılarını, girişlərini mühasirəyə aldı və yenə də alınmadı. İndi isə adını referendum qoyaraq başqa bir izdihamı arxasınca aparır. Beləliklə, Konstitusiya Məhkəməsinin kürsülərində öz adamlarını, oyuncaqlarını oturtmaq üçün daha bir demokratik vasitə, yəni referendum dəyərdən düşdü. Saxtakarlıq və ya axmaqlıq olan yerdə nikbinlik axtarmaq mümkün deyil. Reallıq Paşinyanın uğursuz olacağını, həm də dəhşətli dərəcədə uğursuz olacağını proqnozlaşdırır. Devrilmə qaçılmazdır”.

### “Baş verənlər ölkə üçün müsbət heç nə vəd etmir”

Ermənistanın “1in.am” portalı da baş verənlərin ölkə üçün müsbət heç nə vəd etmədiyini vurğulayır: “Konstitusiyanın dəyişdirilməsi üçün referendumun keçirilməsi, şübhəsiz, çoxqatlı və aralıq oyundur. Ermənistanda idarəçilik sisteminin effektivliyi problemi mövcuddur. Ölkədə kadr siyasəti hakimiyyətin müxtəlif qanadlarının maraqlarının toqquşması, lobbiçilik şəraitində formalaşır. Bu mənada o da diqqətçəkəndir ki, yaranmış problemlərə, Konstitusiya Məhkəməsində baş verən hadisələrə və referenduma, səsvermənin keçirilməsinə paralel olaraq, başqa əhəmiyyətli kadr dəyişikliyi baş verib. Nikol Paşinyan bir neçə gün öncə töhmət verilmiş hərbi-sənaye komitəsinin sədri Avetik Kerobyanı istefaya göndərib. Ancaq bundan sonra da problem, səbəbi nə olursa-olsun, faktiki həll olunmayıb. Bu da daha dərin və çoxqatlı problemlərin mövcudluğunu növbəti dəfə göstərib. Buradakı problem, şübhəsiz, dərin siyasidir və hakimiyyət-müxalifət sferasındakı daxili qarşıdurmadan heç də az siyasi deyil. Amma faktdır ki, Ermənistanı yeni qarşıdurmaya da sürükləyir. Çünki Paşinyanın addımları hüquqa ziddir”.

Bir məqamı da vurğulamaq yerinə düşər ki, bir neçə müddətdir Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında yaranan qarşıdurma artıq daha gərgin mərhələsini yaşamaqdadır. Belə ki, uzunmüddətli mübarizədən sonra Ermənistan parlamentinin təcili iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair referendum keçiriləcəyi barədə qanun layihəsi təsdiq də ölkədə vəziyyətin daha da gərginləşməsinə səbəb olacaq.

Bir sıra təhlilçilər hesab edirlər ki, Paşinyan bununla daxili auditoriyanın başını qatmaq istəyir. Çünki xalqa vəd verib, inqilab edəndən sonra heç bir yenilik edə bilmədi. Əksinə, vəziyyət daha da gərginləşib. Paşinyan bu gedişi ilə sübut etməyə çalışır ki, ona işləri yaxşı səviyyədə görməyə həm də səlahiyyət azlığı mane olur. Xalqın gözündən pərdə asmağa çalışır ki, guya prezident olsa, problemləri daha asan həll edə bilər. Paşinyanın bu niyyəti barədə ekspertlər nə düşünürlər?

### Daşnaklar Paşinyana qarşı çağırış etdi

“Daşnaksütyun” Partiyası Ermənistan vətəndaşlarını konstitusiya dəyişiklikləri ilə bağlı referendumdan imtina etməyə çağırış edib. Partiya bəyanatında hakimiyyətin heç bir məsləhətə və xəbərdarlığa məhəl qoymadığını bildirib. Daşnaklar Paşinyanın bu referendumunu “ölkənin yeni avantüraya çəkilməsi” kimi dəyərləndirib. Erməni siyasi ekspert Aram Amatuni məsələ ilə bağlı bildirib: “Maraqlıdır ki, bundan əvvəl Paşinyan eyni mövzunu şübhəsiz dominant olduğu Avropa Şurasının prezidenti ilə telefon danışığı zamanı müzakirə edib. Maraqlıdır ki, son günlər hakimiyyətə Avropa strukturlarından, Avropa Şurasının Venesiya Komissiyasından və AŞPA həmməruzəçilərindən bir o qədər də xoş olmayan siqnallar daxil olub”. Hüquq müdafiəçiləri bildiri ki, konstitusiya düzəlişləri hüququnun xalqdan alınıb, dövlət orqanlarına verilməsi birbaşa qanunları tapdamaqdır: “Çox danışılırdı ki, bu addım xüsusi amansız cinayət hesab olunur və qanunla mühakimə olunmalıdır. Lakin mən bu problemə daha mühüm nəzər nöqtəsi ilə baxmaq istərdim. Bu, bütün hakimiyyəti ələ keçirmək həvəsi, siyasi didişmə və xüsusi amansız cinayətidir ki, gələcəkdə cinayət məsuliyyətinə cəlb edilənlər olacaq”.

Belə olan halda, dövlətin hüquqi təhlükəsizliyi barədə danışmaq yersizdir, istənilən siyasi, hüquqi və iqtisadi böhran isə, dövlətin anarxiyaya çevrilməsi təhlükəsini yaşadacaq. Beləliklə, Paşinyanın bu addımları ciddi təhlükə olmaqla yanaşı, dövlətçiliyin isə məhvə doğru sürüklənməsinə gətirib çıxaracaq.

**A.SƏMƏDOVA**



# Paşinyanın savadsızlığı ifşa olundu

***Guya “böyük Ermənistan”ın çarı olduğu iddia edilən və ermənilərin “Böyük Tiqran” deyərək özlərinə məxsus olduğu, onlardan biri və ulu babaları kimi təqdim etdikləri birinci Tiqranın erməni toplumuna zərrə qədər aidiyyəti yoxdur. Nikol Paşinyan bir erməni kimi nə varsa, hamısını savadsızlığını da, saxtakarlığını da Münhendə ortaya qoydu. Öz nitqi zamanı tarixə ekskursiya etmək arzusu ilə tamam yanlış yola düşən erməni baş nazir bu rakursda da özünü gülünc vəziyyətə saldı.***

Əvvəla, təkcə Paşinyan yox, onunla eyni ağılda, eyni savadda olan, tarixdən xəbəri olmayan bütün ermənilər heç olmasa onu da olsa nəzərə almalıdırlar ki, “Tiqran” sözünün belə ermənilərə aidiyyəti yoxdur. Dəclə çayının adından götürülən “Tiqr” sözü həmin ərazilərdə məskunlaşan midiyalıların dilində “ox kimi iti”( tiqris) anlamına gəlir. Yəni, bu ad belə ermənilərə məxsus deyil. Digər tərəfdən, birinci Tiqran Əhəmənilər sülaləsindəndir və onu erməni əsilli adlandırmaq üçün ən azından Paşinyan qədər tarixdən məlumatsız və savadsız olmaq lazımdır.

Bu boyda Qafqazda, ermənilərin izinin-tozunun olmadığı bir vaxtda ermənilərə aidiyyatı belə olmayan hansısa fatehdən, hökmdardan istifadə etməklə erməni izini sübut etmək olmaz. Bu barədə söz tarixçilərə məxsusdur və onlar kimin harada və necə olduğunu yazıblar. Məsələn, Qafqazın tarixinə toxunan məşhur Heredot, bu ərazilərdə yalnız midiyalıların hökmranlıq iddiasında olduğunu yazır. Məşhur tarixçinin qeydlərində bu ərazilərdə nəinki erməni adında bir toplum olmadığını yazır. Məsələ burasındadır ki, dövlət kimi də deyil, hətta tayfa olaraq ermənilərin adı heç bir yerdə işlədilmir. Nümunə üçün qeyd etmək olar ki, Strabon Qafqaz ərazisində yaşayanlardan bəhs edərkən 26 tayfanın adını çəkir və Paşinyan bilməlidir ki, bu adlar içərisində də ermənilər, yaxud erməni dilində nə isə yoxdur.

Paşinyanın dediyi “Great Armenia” adında dövlət və onun dırnaqarası tarixi möhtəşəmliyi məsələsi isə hədsiz dərəcədə gülünc səslənir. Münhendə görüş zamanı Ermənistanın baş naziri həmin o qondarma “Great Armenia” ilə Roma imperiyasının döyüşdüyünü də utanmadan dedi. Amma həqiqətən də Roma imperiyasının sərkərdələri belə Münhendə Paşinyanın dediklərinə görə və hətta onun yerinə utanardı. Hətta ehtiyat edərdilər ki, bu dəqiqə Nikol Paşinyan Roma imperiyasının barbarların deyil, ermənilərin hücumu ilə süquta uğradığını da yalandan deyə bilər. Bu isə onlar üçün süquta uğramaqdan da, ölümdən də betər olardı.

Ermənilərin tarixi barədə cəfəngiyyatlar çoxdur və bu cəfəngiyyatları onların öz tarixçiləri uydurur və ola bilsin Paşinyan tarix əvəzinə uydurmalar kitabını oxuyub. Çünki erməni tarixçiləri yox, erməni uydurmaçıları bir zamanlar Qədim Roma Senatında ermənilərin romalılarla yanaşı əyləşmək hüququ olan yeganə xalq olduğunu uydururlar. Bu uydurmaçılar erməniləri böyük xalq kimi şişirtməyə, ərazilərinin isə az qala bütün dünya boyda olduğunu sübut etməyə, sırımağa çalışırlar. Halbuki bir çox mənbələrdə ermənilər qaraçı tayfalarının bir şəcərəsi kimi təqdim edilir. “Böyük Sovet Ensiklopediyası”nda da, sovet imperiyası dövründə çap olunan “Dünya ölkələrinin xalqları” kitabında da ermənilər qaraçı tayfalarının bir şəcərəsi kimi göstərilir.

Məsələ burasındadır ki, Paşinyandan fərqli olaraq, az-çox ağlı başında olan erməni və onun tarixçisi onlara məxsus acı həqiqətləri etiraf ediblər. Məsələn, orta əsr erməni tarixçisi Moisey Xorenasi, öz haylarının kiçik, azsaylı, zəif və başqalarının hakimiyyəti altında yaşayan xalq olduğunu etiraf edir. Bir çox mənbələrdə ermənilərin gəlmə olduğu qeyd olunur və əsasən onların Assuriyadan gəldiyi bildirilir. Yəni bu, o deməkdir ki, Paşinyanın Münhendə dedikləri, Qafqazda ermənilərin yerli əhali olaraq yaşamaları iddiaları cəfəngiyyatdır və bu öz təsdiqini bütün dəqiq mənbələrdə tapır.

Münhendə ölkə başçımızın, Cənab İlham Əliyevin dediyi kimi, ermənilər iki yüz ildir ki, xalqımıza qarşı hərbi, siyasi, ideoloji və başqa vasitələrlə siyasət yürüdür və məqsədləri azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq, fiziki cəhətdən məhv etməklə yeni ərazilər ələ keçirmək, mifik “Böyük Ermənistan” dövləti yaratmaqdır. Əslində, mifik “Böyük Ermənistan” bir yana, hazırki Ermənistan əraziləri belə ermənilərin vətəni deyil. Bunların ümumiyyətlə, elə qaraçıların digərləri kimi vətəni yoxdur və hələ də vətən axtarışındadırlar. Əbəs yerə deyildi ki, Prezident İlham Əliyev Münhendə görüş zamanı dedi ki, ermənilər getsinlər müqəddaratlarını yer kürəsinin istənilən yerində təyin etsinlər, amma Azərbaycanda yox. Ölkə başçımızın bu fikri bir çümlə ilə erməni tarixini də, onun missiyasını da, məqsəd və məramlarını da ifşa etdi. İfşa olundu ki, ermənilər ərazi arzusunda və iddiasındadırlar, Paşinyan bu arzuları, bu iddiaları səsləndirməklə savadsız bir marianet olduğunu nümayiş etdirib.

**İnam HACIYEV**

# "Polislərlə bilərəkdən qarşıdurmaya gedən jurnalistlər var"

**_Mövcud faktlara və baş verənlərə əsasən demək olar ki, müxalifətin mövqeyindən çıxış edən bəzi özlərini jurnalist adlandıran şəxslər aksiyalar zamanı etirazçı kimi çıxış edir və polislə qarşıdurmalara maraq göstərirlər. Bu jurnalistika peşə-etika qaydalarının kobud şəkildə pozulması deməkdir. Söhbət etdiyimiz müsahiblərimiz də, jurnalistlərin tərəf kimi çıxış etməsinin yolverilməz olduğunu və belə şəxslərin maraqlara xidmət etdiklərini bildirdilər._**

"Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz:
**"Jurnalist etika qaydalarını pozursa, deməli, maraq dairəsi var"**

- Bütün hallarda jurnalist bitərəf olmalı, öz qələminə, peşəsinə hörmət etməlidir. Yəni hadisələri izləməli və gördüyünü yazmalıdır. Jurnalistin özü mitinqə gedirsə, bu artıq jurnalistin peşə-etika qaydalarına əks mövqe sərgiləməsi deməkdir.



Onların müxalifətin mitinqlərində etirazçı kimi çıxış etmələri jurnalist etikasını həddən artıq pozur. Jurnalistin işi hər hansı bir hadisədən xəbəri toplamaq, yazmaq, istehsal etmək və həmin xəbəri yaymaqdır. Jurnalist etika qaydalarını pozursa, təbiidir ki, burada hiss olunur ki, jurnalist artıq bitərəf deyil, maraq dairəsi var və o maraq dairəsində də təbiidir ki, arxasında kimlərinsə əli var, izi var.

"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı:
**"Jurnalistlərin aksiyalarda tərəf kimi iştirak etməsi qəbul olunmazdır"**

- Aksiyalarda jurnalistlərin iştirakı ilə bağlı Mətbuat Şurasının Avropa Şurası ilə birgə tədbirlər planı var. Həmin plana əsasən, jurnalistlər üçün üzərində "Press" yazılan xüsusi gödəkçələr hazırlanıb. Hansı ki, jurnalistlərin əksəriyyəti bu gödəkçələrdən istifadə edərək müxtəlif aksiya və ya mitinqlərə qoşulurlar. Ancaq təhlükəsizlik baxımından xüsusi qaydalar var ki, jurnalistlər məhz həmin qaydalara əsasən, mitinq zamanı hansı məsafədə dayanacaqlarını müəyyən edə bilərlər, yəni jurnalistlər bu aksiyaları müşahidə etməlidirlər və bu müşahidənin əsasında yazılar, reportajlar hazırlamaq jurnalistin hüququdur. Jurnalistin aksiyaya qatılmaq, polislərə müqavimət göstərmək, hansısa bir tərəf tutmaq bu peşə etikasına, peşə davranış qaydalarına tamamilə ziddir. Bəzi jurnalistlər tərəf olur, aksiya iştirakçısı kimi davranır. Bu cür hərəkətlər peşə dəyərlərinə, peşə etikasına, davranış qaydalarına uyğun deyil. Təəssüflər olsun ki, polislərlə qarşıdurmaya gedən jurnalistlər var və mən onları qınayıram. Çünki o jurnalistlər heç bir peşə davranış qaydalarına uyğun davranmırlar. Əlbəttə ki, bu aksiyaları yazmaq və çəkmək hər bir jurnalistin vəzifə borcudur. Ancaq jurnalistlərin aksiyalarda tərəf kimi iştirak etməsi qəbul olunmazdır.



**_GÜLYANƏ_**

# Leyla Yunus xəyanətləri

*Bu dəfə kitab üzərində satqınlığı...*

**_Sirr deyil ki, Leyla Yunus Azərbaycanda yaşadığı dövrdə, "Sülh və Demokratiya İnstitutu" adlı qondarma qurumun adı ilə dəfələrlə Ermənistana səfər edib və orada görüşlər keçirib. Belə ki, o Azərbaycanın təhlükəsizliyi zərərinə 2002-ci ildən etibarən təsisçisi və sədri olduğu, hüquqi qeydiyyatı olmayan qurumu vasitəsi ilə Şahnazaryan David Qurgenoviç, Baqdasaryan Laura Seyranovna və digərləri ilə birlikdə Ermənistanın "Region" Tədqiqatlar Mərkəzi və digər qeyri-hökumət təşkilatları arasında "xalq diplomatiyası" üzrə birgə layihələr həyata keçirilməsinə çalışıb._**

Eləcə də, o, Karen Ohancanyan tərəfindən Böyük Britaniyadakı bankdan 2002-ci ildə, Ermənistanda fəaliyyət göstərən "Jurnalist Araşdırmaları" qeyri-hökumət təşkilatı tərəfindən isə İrəvan şəhərindəki bankdan 2004-cü ilin iyulundan 2005-ci ilin mayınadək olan müddətdə rəhbərlik etdiyi qurumun şöbə müdiri olan, əri Arif Yunusun Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarındakı hesablarına köçürülmüş külli miqdarda pul vəsaitləri müqabilində, düşmən ölkədə fəaliyyət aparıb. İndi də Azərbaycan xalqının maraqlarını erməni kəşfiyyatına satan Leyla və Arif Yunuslar AŞPA-nın ölkəmizdə keçirilən parlament seçkiləri ilə bağlı "qətnaməsi"ndən bəhrələnməyə çalışıb. Özünü "əzabkeş" kimi təqdim edən L.Yunus bu dəfə də öz murdar xislətindən əl çəkməyib. Belə ki, mart ayında Yerevana səfər etməyi planlaşdıran Yunuslar Yerevandakı partnyorlarının-Ermənistan xüsusi xidmət orqanlarının keçmiş rəhbəri David Şahnazaryanın dəstəyi ilə "Dəhşətli Azərbaycan reallıqları" adlı kitabın Ermənistanın piştaxtalarına satışına çıxaracaqları bildirilir. Hətta onların bu ölkəyə birdəfəlik getmələri məlumatları da var. Görünür, onlar digər erməni aşiqi, separatçı Əlikram Hümbətov üçün də



çox darıxıblar. Reallığa qalanda isə, onların Ermənistana səfərləri artıq nə qədər ermənipərəst olduqlarının aşkar sübutudur.

**Simasızların siması...**

Göründüyü kimi, həyasızlığı ilə özünü gündəmdə saxlayan, Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlığı subuta yetirilərək həbs olunan, Azərbaycan dövlətinin humanistlik göstərərək azadlığa buraxdığı "siyasi məhbus" alverçisi Leyla və Arif Yunusların bu gün Azərbaycana qarşı hər cür böhtanlarına dəstək olması onların simasızlığını göstərib. Bu gün ermənilərlə iş birliyini gizlətməyən bu o Leyla-Arif Yunuslardır ki, QHT-çilik taleyinin bütün mərhələlərində anti-Azərbaycan kompleksini gizlətməyib. Daim xarici anti-Azərbaycan qüvvələrin maliyyələşdirdiyi layihələrin icrası ilə məşğul olub. Yalançı "siyasi məhbus" siyahıları hazırlayaraq, dövlətin beynəlxalq nüfuzuna kölgə salmağa çalışıb, satılıb və satmaqda davam edir.

Bu gün həyasızcasına L.Yunus "bizim adımızı tarixdən silmək mümkün olmayacaq" tipli bəyanatlar verməklə anlamır ki, onların adları Azərbaycanın şanlı tarixində Vətənə xəyanətin simvolu kimi qalacaq. Ona görə ki, bu "tarix" yalnız şərdən, böhtandan, xəyanətdən və cəmiyyətə vurulmuş qara ləkədən ibarətdir.

Eyni zamanda, bu satqın onu da bilməlidir ki, nə cızmaqaradan ibarət olan kitabı, nə AŞPA-nın "siyasi məhbus" oyununa dəstək olmaqla heç nəyə nail olmayacaq. Çünki dövlətini satanlar, vətən xainləri daim lənətlə yad olunur.

**_Rəfiqə HÜSEYNOVA_**

## Əşrəf Qani prezident seçkilərində qalib gəldi



Əfqanıstanın hazırkı rəhbəri Əşrəf Qani seçkilərdə səslərin son sayılması nəticəsində rəsmi olaraq qalib elan edilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu barədə 1TV seçki komissiyasının saytına əsasən xəbər verir. Qeyd olunur ki, bundan öncə Əfqanıstanın Şikayətlər və İddialar Komissiyası prezident seçkilərinin ilkin nəticələri elan olunduqdan sonra təxminən 16,5 min şikayət qəbul edib.



## Xədicənin "mədəniyyəti" hara, polislərin ləyaqəti hara

**RƏFİQƏ**

**_Bu yerdə ağbirçəklərimizin dediyi kimi: göydən daş yağmır da. Daim Azərbaycan dövlətçiliyinə qarşı xüsusi aqressiyası ilə seçilən və həmin aqressiyasını 16 fevralda radikal müxalifətin qanunsuz keçirdiyi mitinqdə davam etdirən özünü "araşdırıcı jurnalist " adlandıran Xədicə İsmayıl polislərə "demokratiyadan" dəm vurub. Bax bu yerdə atalarımızın "bişmiş toyuğun da gülməyi gəlir" ifadəsi lap yerinə düşür._**

Kim, kim X.İsmayıl. X.İsmayıl mədəniyyət hara, demokratiya hara? Görünür, onun ətrafında polislərin əl-ayağana dolaşan 2-3 nəfər özü kimi satqın gənclərə "jurnalist geyimini" geyindirərək dövlətin ünvanına özünə layiq olan əxlaqsız sözləri papuqay kimi təkrarlayanlar "mədəniyyətli olun", "demokratiya budur" deməklə qarşıdurma yaratmağa çalışırlar. Ancaq anlamırlar ki, Xədicə kimi jurnalistin "tələbəsit" də özü kimi olacaq. Əvvəla, yaxşı jurnalist olmaq o geyimi geymək və yaxud da böhtan yazmaq deyil. Əgər belə olsa idi, Lev Tolstoy, Ernest Hemenquey, Cek London... kimilər dünyanın ən yaxşı jurnalistləri olardılar. Bir də böyük şairimiz Mirzə Ələkbər Sabir demişkən "düzü düz, əyrini əyri yazmaq" və yaxud da Azərbaycan milli mətbuatının banisi, maarifçi Həsən bəy Zərdabi qələm sahibinin obyektiv olduğunu dediklərini xatırlasınlar. Bu dahilər belə demək mümkünsə, söz sehrbazları, hər bir oxucunun qəlbinə yol tapmağı bacaran yazıçılar idi. Onların işi yazmaq idi. Öz fikirlərini, ictimaiyyətdə oyatmaq istədikləri arzu və istəkləri, təbliğat məqsədli fikirlərini kağız üzərinə köçürürdülər. Amma bir əsas məqam odur ki, jurnalist düzgün nəticə çıxarmaq üçün baş verənlərə obyektiv, vicdanlı, qərəzsiz yanaşmalı, operativ olmalıdır.

İctimai fikrə uğursuz mənfi təsir göstərən X.İsmayıl kurtizan həyasızlığı xarakterini bütün gücü ilə öz timsalında göstərən, sosial şəbəkələrdə təhqiramiz epiqramlar yazıb onları tirajlamaqdan o yana keçməyən iyrənc satqındır. Xədicənin tarixçəsi şəxsi ambisiya və iddiaların sublimasiyasıdır. Eybəcərin eybəcəri olan bu o X.İsmayıldır ki, bütün fəaliyyəti böhtan və yalanlar üzərində qurulub.

Bu yerdə Onori Balzakın bir sözü yadıma düşdü: "Həyat məndən fahişə düzəltdi. Mən isə həyatın özünü fahişəxanaya çevirəcəyəm". Budur, X.İsmayıl və onun "jurnalist geyimi geyən papuqayları". Qrantları bahalı "CİP"lərə çevirən X.İsmayıl kimilərin özünü "jurnalist" adlandırması bir jurnalist kimi məni göynədir. Çünki "qrant" Xədicə xaricdən pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyaların təbliğatçısı özünü "vicdanlı", "mədəni" polisləri isə "mədəniyyətsiz", "qabiliyyətsiz" sayır. Ancaq anlamır ki, Azərbaycan xalqı Xədicənin və onun ətrafında dolaşan "jurnalist geyimində " olanları heç vaxt qəbul etməyib.

X.İsmayıl həm də PROVOKATORDUR! Çünki kimsəyə sirr deyil ki, Azərbaycan hökuməti hər zaman insanların hüquqlarının qorunması ilə bağlı lazımi addımları atıb. Bütün bu kimi məsələlərin gündəmdə olduğu bir vaxtda hansısa kəşfiyyatçını, təxribatçını, ajiotajçını və satqını "hüquq müdafiəçisi" kimi təqdim etməyin özü də bir XƏYANƏTDİR!

Digər tərəfdən, o da bəllidir ki, o, xarici təşkilatların əlində bir vasitədir. Həyata əyri gələni heç qəbir də düzəltməyəcək. Çünki həmin donqarın içində yalnız və yalnız xəyanətlər var. Özü də kifayət qədər! Bu qədər bataqlıqda eşələnən X.İsmayıl hansı üzlə polisləri təhqir edir? Bu gün respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında daxili işlər orqanlarının və onun ayrı-ayrı strukturlarının da müstəsna xidmətləri olduğu halda belə bir məsuliyyəti missiyanı yerinə yetirən polislərimizə X.İsmayıl kimi cinayətkarlar "mədəniyyət", "demokratiya" dərsi keçməsi onların əsl üzünü göstərir. Ancaq anlamalısınız, nə qədər ki, sizin kimilər təxribatlara, böhtanlara əl atacaqsınız, bir o qədər də xalqın nifrətini qazanacaqsınız.

# Azərbaycanda insan hüquqları

***İnsan haqları - humanizm və maarifçilik dövründə insanların təbii və dərrakədən irəli gələn subyektiv hüquqlarını təsvir edir. İnsan haqlarının əsas konsepti ondan ibarətdir ki, bütün insanlar insan olmalarına görə hamısı eyni hüquqa malik olmalıdırlar və bu hüquqlar izahata ehtiyac duyulmadan hamıya aid edilir.***

İnsan hüquqları institutu, məzmun etibarilə müxtəlif, eyni statusa sahib olmayan hüquqları tədqiq edir və qoruyur. Lakin mülkiyyət hüququ təbii və əsaslı hüquq olduğu halda, konkret bir həyat tərzi ətrafında birləşməyi təmin edən həmrəylik (solidarity) hüquqlarının mahiyyəti belə tam aydınlığa qovuşmayıb. Habelə insan hüquqları institutu, mənbə etibarilə, beynəlxalq sənədlərə söykəndiyi kimi, milli qanunvericilik müddəalarına da əsaslanır. Konkret hüququn məzmununun doldurulması da maraq kəsb edir. Belə ki, mülkiyyət hüququnun məzmununu dolduran mülki hüquq olduğu halda, söz azadlığı kimi hüquqların məzmununu isə fəlsəfə və siyasət elmi doldurur. Konkret hüquqlar baxımından bunu niyə bilməliyik? Məsələn, ayrı-seçkiliyə məruz qalmama hüququnun necə formalaşdığını bilməsək, müxtəlif hadisələrdə onu düzgün tətbiq edə bilməyəcəyik. Yəni hüquq hansı prinsiplərin təmin edilməsinə yönəlir, mütləq bilinməlidir. Burada bir məsələni qeyd etməliyik. İnsan hüquqları institutu anarxiya rejiminə yönəlmir və insanın hər istədiyini edə biləcəyi bir mühiti formalaşdırma məqsədini güdmür. Dövlətin insan hüquqlarına hörmətlə yanaşması, dövlətin bu sahədə tənzimləmə aparma səlahiyyətini aradan qaldırmır, ancaq bu tənzimləmənin məqsədini tənzimləyir və məhdudlaşdırır. Anarxiya nizamı, bütün hüquqları təhlükə altına aldığına görə, nizam-intizam qorunmalıdır və dövlətin hakimiyyət səlahiyyətlərinə də hörmətlə yanaşmaq lazımdır. Lakin hakimiyyət səlahiyyətləri, insanların legitim və ağlabatan maraqlarının məcmusundan ibarət olan, ictimai maraqların doyurulmasına yönəlməlidir. Burada insan hüquqları nəzəriyyəsi, demokratik rejimlərə bir məhdudiyyət gətirir və konkret insanın çoxluq tərəfindən belə pozulmaz hüquqlar "qalasını" göstərir. Avtoritar rejimlərdə isə, insan hüquqları institutu bir az daha fərqli məqsədə yönəlir və effektivliyi də daha zəif olur. O simvolik bir protestə və zülmə qarşı dirənən çoxluğun ideologiyasına dönüşür. İnsan haqları demək olar ki, dünyanın bütün ölkələri tərəfindən qəbul edilir. Bu məsələnin universallığından, çox vaxt bu və ya digər dövlətlərdə insan haqlarından sui istifadə halları əsas götürülərək onlara qarşı hərbi və iqtsadi təzyiq göstərmək üçün istifadə edilir. Konstitusiyalarda əsas hüquqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqları inkar olunmaz bir hüquq kimi qəbul edilmişdir. Beynəlxalq aləmdə insan haqları BMT-nin deklarasiyası ilə qanuniləşdirilmişdir. İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur: "Hər bir insan onun malik olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir!"

Sovet İttifaqının süqutu dünyada baş verən geosiyasi vəziyyətə öz güclü təsirini göstərdi. Müstəqilliyini qazanmış hər bir ölkə öz təbii sərvətlərindən, insan potensialından, milli sərvət və dəyərlərindən istifadə etməklə keyfiyyətcə yeni inkişaf yoluna qədəm qoydu. Yaranmış qarışıqlıq burulğanında separatizm meylləri baş qaldırdı və yeni müstəqil dövlətlərə təzyiqlər edilməyə başlandı. Nəticədə etnik təmizləmə, genosid, silsilə terror aktları törədildi. Azərbaycan torpaqlarının işğalı və minlərlə dinc sakinin bundan zərər çəkməsi buna əyani misaldır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olundu, on minlərlə insan ermənilərin törətdiyi kütləvi qırğınların qurbanı oldu, bir milyondan çox azərbaycanlı işgəncələrə, zorakılığa məruz qalaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, yüzlərlə yaşayış məntəqəsi, təhsil, səhiyyə obyektləri, tarix və mədəniyyət abidələri məhv edildi. 1994-cü ildən atəşkəs haqqında razılığın əldə olunmasına baxmayaraq hələ də erməni tərəfinin atəşin dayandırılması rejimini müntəzəm pozması nəticəsində Azərbaycan tərəfindən hərbçilərlə yanaşı sərhədyanı bölgələrdə yaşayan dinc əhali (ahıllar, qadınlar, uşaqlar və digərləri) də həlak olur. Eyni zamanda mütəmadi olaraq erməni hərbi qüvvələri tərəfindən azərbaycanlı hərbi qulluqçuları əsir, mülki əhali isə girov götürülür. Bütün bunlara baxmayaraq, Azərbaycan sürətlə inkişaf edir. İnsan hüquq və azadlıqlarının müdafiəsi və həyata keçirilməsi, ölkə vətəndaşlarının pozulmuş hüquqlarının bərpası müstəqillik, suverenlik şəraitində daha mühüm əhəmiyyət kəsb edir, ön plana keçir və bu şərəfli missiyanın reallaşması daha asan olur. Çünki bütün insan hüquqları məhz bu şəraitdə, müstəqillik mühitində gerçəkləşə bilər. Ötən əsrin sonlarına yaxın müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında həyatın bütün sahələri üzrə, o cümlədən, insan hüquqları sahəsində köklü islahatlar həyata keçirilməyə başlandı. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında göstərildiyi kimi, Azərbaycan Respublikası xalqın birliyini qorumalı, ayrıca şəxsin, ailənin, ictimai birliklərin və digər kollektivlərin mənafeyinə uyğun surətdə qanundan irəli gələn hüquqları və azadlıqları müəyyən edərək və bunlara hörmət göstərilməsini təmin edərək hüquq qaydası yaratmalıdır. Bütün vətəndaşların mənafelərinin qanuna əsasən uzlaşması təmin edilməli, hər bir şəxsin hər hansı ayrı-seçkiliyə yol vermədən azad inkişafı üçün bərabər şərait yaradılmalıdır. Ulu Öndər Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdən başlayaraq respublikamızda həyata keçirilən irimiqyaslı layihələr milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyimizin bərpasına zəmin yaratdı. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, ölkəmizin parçalanmasına son qoydu, hüquqi dövlət və demokratik cəmiyyət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı. "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasətinin və iqtisadi inkişafının əsaslarını qoymuşdur. Konstitusiya aktı nə qədər mühüm və əhəmiyyətli bir sənəd olsa da, dövlətin quruluşunu və əsaslarını müəyyən edən Konstitusiyanı əvəz edə bilməzdi. Müstəqilliyin qovuşmuş gənc dövlətin demokratik prinsiplərə cavab verən əsas qanunun olmasına böyük ehtiyac var idi. Məhz bu baxımdan 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndər Heydər Əliyev ilk olaraq beynəlxalq hüququn və insan hüquqlarının ümumtanınmış prinsiplərinə uyğun olan konstitusiya layihəsinin hazırlanmasını qarşıya məqsəd qoydu. Qısa müddət ərzində konstitusiyanın layihəsi hazırlanaraq 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul olundu. Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunmuş və insan hüquqlarının təbii hüquqlar olması göstərilmişdir. Əsas Qanunda həm birinci nəsil insan hüquqları, yəni vətəndaş və siyasi hüquqlar, o cümlədən bu hüquqların tərkib hissəsini təşkil edən məhkəmə təminatı ilə bağlı olan hüquqlar, həm də ikinci nəsil insan hüquqları, yəni iqtisadi, sosial və mədəni hüquqlar təsbit olunmuşdur. Eyni zamanda, müəyyən mənada Konstitusiyada kollektiv hüquqların əks olunduğunu da iddia etmək olar. Məsələn, ən mühüm kollektiv hüquq kimi səciyyələndirilən sülh hüququ Konstitusiyada birbaşa olmasa da, dolayısı ilə nəzərdə tutulmuşdur. Yaxud müasir hüquq ədə biyyatında müəyyən qədər həmrəylik hüququ kimi dəyərləndirilən ətraf mühitin təhlükəsizliyi hüququ Konstitusiyada fərdi hüquq kimi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha effektiv təmin edilməsi məqsədi ilə ümummilli liderimiz bu sahədə mühüm Fərman və Sərəncamlar imzalamışdır. Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanından irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq, Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmişdir. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" xüsusi diqqətə layiqdir. Həmin proqram tam yerinə yetirilsə də, yenə də demək olar ki, qarşıya qoyulmuş bəzi məqsədlər keyfiyyətcə yeni səviyyədə dövrün tələblərinə uyğun olaraq davam etdirilir. Qlobal problemlərin həllində insan hüquqlarının rolunun artması bu sahədə yeni həm beynəlxalq, həm də milli hüquqi mexanizmlərin yaradılmasını və mövcud olan mexanizmlərin təkmilləşdirilməsini zəruri edir. Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra, ölkədə bu sahədə demokratik, hüquqi islahatların həyata keçirilməsi və insan hüquqlarının səmərəli təmini məqsədilə institusional mexanizmlər sistemi yenidən qurulmuşdur.

**Beynəlxalq aləmdə insan haqları BMT-nin deklarasiyası ilə qanunləşdirilmişdir. İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur: "Hər bir insan onun malik olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir!"**

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**19 fevral**

# SƏS

**Son səhifə**

## Moskvada istilik rekord həddə çatdı

Rusiyanın paytaxtı Moskva son 130 ilin ən isti qışını yaşıyır. SİA xəbər verir ki, ölkədə qış yuxusuna gedən heyvanlar qış yuxusundan erkən oyanıb. Paytaxt Moskvada havanın istiliyi rekord həddə çatıb. Yeni ildə qar görməyən paytaxtda qış atmosferi yaratmaq istəyən məmurlar tətil günlərində süni qar gətiriblər. Qar olmaması ilə yanaşı, Moskva çayında meydana gələn qalın buz təbəqəsi bu il özünü göstərmədi. Belə ki, fevralın ortalarında paytaxtda havanın temperaturu +2 dərəcədir, bu nəticə ilin bu vaxtında görülən adi temperaturdan çox fərqlidir.





## Ronaldunun sevgilisinin bu görüntüsü olay oldu

**Kriştiano Ronaldu sevgilisi Corcino Rodrigesə qarşı olduqca səxavətli davranır. Fanat.az xəbər verir ki, Corcinonun sosial şəbəkədə şəkli yayılıb. Onun sol əlində olan aksessuarların qiyməti müzakirə mövzusu olub. Təqribi hesablamalara görə, Corcinonun sol əlindəki əşyaların qiyməti 1 milyon avrodur.**

Ən bahalı əşya üzükdü. Brilyant qaşlı üzüyün qiyməti təxminən 800 min avrodu. Rodrigesin "Patek Philippe" markalı saatı isə 40 min avroyadı.Bilərziklərin isə hər birinin 30 min avro dəyəri olduğu ehtimal edilir.

## 20 yaşlı rəqqasə məhkəmədə İbrahim Tatlısəsə uduzdu



Cinsi istismarda ittiham olunan məşhur müğənni İbrahim Tatlısəs məhkəmədə qaldırdığı iddianı qazanıb. SİA-nın türk mətbuatına istinadən verdiyi məlumata görə, keçmiş oriental rəqqasə Sibel Gökçə 2013-cü ildə qatıldığı bir efir proqramda cinsi təcavüzə məruz qaldığını söyləyib. İddiaya görə, 20 yaşlı rəqqasəyə İbrahim Tatlısəs tərəfindən cinsi təcavüz olunub.

Müğənni rəqqasənin söylədiyi sözlərin heç bir reallığı əks etdirmədiyini hesab edərək onu məhkəməyə verib və təzminat tələb edib. Belə ki, məhkəmə bu iddianı əsassız sayaraq Sibel Gökçənin İbrahim Tatlısəsə 12 min TL təzminat ödəməsi haqqında qərar qəbul edib. Qeyd edək ki, məhkəmə 2013-cü ildən başlayan iddia üçün ödəniləcək 12 min lirə təzminatı faiz dərəcəsi ilə ödəməyi qərara alıb.

## Ötən il Azərbaycanda neçə min cütlük nikaha daxil olub?

Ötən il Azərbaycanda Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 63 min 869 nikah və 17 min 148 boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 2018-ci illə müqayisədə dəyişməyərək eyni səviyyədə (6,4) qalıb, boşanmaların sayı isə 1,5-dən 1,7-yə qədər artıb. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumatda, həmçinin bildirilib ki, əhalinin hər 1000 nəfərinə nikahlar Aran və Kəlbəcər-Laçın (6,9), Dağlıq Şirvan (6,8), Şəki-Zaqatala (6,6), Quba-Xaçmaz və Yuxarı Qarabağ (6,5) iqtisadi rayonlarında ölkə səviyyəsindən (6,4) yüksək olub. Boşanmalar isə Bakı şəhərində və Kəlbəcər-Laçın (2,3), Abşeron və Yuxarı Qarabağ (2,0) iqtisadi rayonlarında ölkə səviyyəsindən (1,7) yüksək olub.



## Goranboyda dəhşətli yol qəzası: Bir nəfər ölüb



Goranboy rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 18-də saat 1 radələrində Goranboy rayonunun Dəliməmmədli şəhəri ərazisində Gəncə şəhər sakini Elşən Əhmədov idarə etdiyi "VAZ-2106" markalı avtomobili yolun kənarındakı ağaca vurub. Nəticədə sürücü xəstəxanaya aparılarkən yolda ölüb. Hadisə ilə bağlı araşdırma aparılır.

## ELAN

ADPU-nun Kimya və biologiya fakültəsinin 1802 B qrup tələbəsi Bağırzadə Neycanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun İbtidai təhsil fakültəsinin 1902 qrup tələbəsi Abbasova Çiçək Mirzəxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun İnformatika ixtisası üzrə I kurs tələbəsi Nuriyeva Güllü Seymur qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Yeni Günəşli qəsəbəsi AB massivində yaşayan Mehrəliyev Mail Təhməz oğlunun adına verilmiş qaraja aid çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Qobustan rayonu Qaracüzlü kənd sakini Muradov Muradxan Hidayət oğlunun adına verilmiş JN-0002 saylı torpaq mülkiyyəti hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Qobustan rayonu Qaracüzlü kənd sakini Mirzəmmədov Heybət Qulu oğlunun adına verilmiş JN-0007 saylı torpaq mülkiyyəti hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Qobustan rayonu Qaracüzlü kənd sakini Məcidov Mirbala Gülbala oğlunun adına verilmiş JN-0034 saylı torpaq mülkiyyəti hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**